RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 199 (8222) ÇƏRŞƏNBƏ, 11 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Təhsil xalqın və dövlətin uğurlu gələcəyinə aparan işıqlı yoldur

## Heydər Əliyev Fondunun bu sahə ilə bağlı gerçəkləşdirdiyi layihələr böyük razılıqla qarşılanır

**Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasında, elmin, təhsilin, mədəniyyətin və incəsənətin inkişafında və dünya miqyasında tanınmasında mütərəqqi ənənələrə əsaslanan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Fond Azərbaycanın inkişafına ən mühüm töhfə verən sahələrdən biri kimi təhsilə daim xüsusi diqqət və qayğı ilə yanaşır, bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirir. Ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək", ümumiyyətlə, dövlət maraqları baxımından xüsusi əhəmiyyət daşıyan bir sıra layihələri fond uğurla gerçəkləşdirir.**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın elm və təhsilin inkişafına xüsusi diqqət yetirməsi onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, xalqına olan sonsuz məhəbbətinin, hər kəsə nümunə ola biləcək vətənpərvərliyinin bariz nümunəsidir. Azərbaycanın birinci xanımı bu nəcib təşəbbüsü və xeyirxahlığı ilə Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan, dövlət başçısı İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyi konseptual təhsil strategiyasının həyata keçirilməsinə öz layiqli töhfəsini verir.

Azərbaycanın birinci xanımı çıxışlarının birində bu layihənin əhəmiyyətinə toxunaraq deyib: "Ölkəmizdə çox böyük əks-səda doğuran "Yeniləşən Azərbaycana yeni məktəb" proqramıdır. Biz ilk dəfə bu proqramı təqdim edəndə "dəyirmi masa" keçirmişdik. Çox adam inanmırdı, şübhə ilə yanaşırdı ki, bu necə ola bilər, üç-dörd ay ərzində 132 məktəb tikiləcək, özü də əksəriyyəti ucqar rayonlarda, ölkəmizin dağlıq rayonlarında inşa olunacaqdır. Amma biz sübut etdik ki, əgər inam varsa, iradə varsa, əgər işləri düzgün qurmaq bacarığı varsa, hər bir problem çox qısa bir zamanda öz həllini tapa bilər ..."

Fondun layihələri arasında məktəbəqədər balacalar da diqqətdən kənarda qalmayıb. Tovuzdakı 7 saylı körpələr evi-uşaq bağçası, Balakən şəhərinin Məhəmməd Əsədov küçəsində yerləşən uşaq bağçası və Şəkidəki 16 saylı 100 yerlik uşaq bağçası Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı çərçivəsində inşa edilərək bu il istifadəyə verilib.

Azərbaycanda təhsilin inkişafını beynəlxalq səviyyəyə yüksəltmək üçün bütün imkanlardan yetərincə istifadə edən Heydər Əliyev Fondu nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində də bütün vasitələrdən səmərəli istifadə edib. Belə ki, fondun təşəbbüsü ilə Parisdə UNESKO-nun iqamətgahında "Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları" mövzusunda beynəlxalq konfransın keçirilməsi də təsadüfi deyildi. Əldə olunmuş razılaşmaya əsasən, həmin ilin avqust ayında "UNESKO-Azərbaycan: Azərbaycanın təhsil problemləri və perspektivləri" mövzusunda növbəti konfrans təşkil olundu. Bu nüfuzlu və mötəbər tədbirdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva çıxış edərkən həmçinin Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin təhsil sahəsində də ciddi çətinliklər, problemlər yaratdığını UNESKO-nun baş direktorunun və tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələrdən biri də "Təhsilə dəstək"dir. Birbaşa tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına istiqamətlənən bu proqram məktəblərin əyani vəsait və şagirdlərin dərs ləvazimatı ilə təmin olunmasına yönəlib. Hər il keçirilən silsilə tədbirlər təhsil sahəsində qarşıya çıxan bəzi problemlərin aradan qaldırılmasında öz müsbət təsirini göstərib. 2004-cü ildən başlayaraq hər il qaçqın və məcburi köçkün ailələrinin ilk dəfə məktəbə qədəm qoyan uşaqlarına məktəbli çantaları və dərs ləvazimatı fondun dəstəyi ilə hədiyyə olunub. Ötən tədris ilində Heydər Əliyev Fondu tərəfindən 130 min birinci sinif şagirdinə 16 adda məktəbli ləvazimatı ilə təmin olunmuş çanta paylanılıb. Bu il də davam etdirilən həmin ənənə fondun məktəbə ilk qədəm qoyan birinci sinif şagirdlərinə növbəti hədiyyəsidir.

Yeri gəlmişkən, Heydər Əliyev Fondunun tətbiq etdiyi humanist təhsil siyasəti ölkəmizdən kənarda yaşayan azərbaycanlı məktəblilərdən də yan keçməyib. Gürcüstanda yaşayan məktəbyaşlı soydaşlarımız da həmin layihələrdən bəhrələnirlər. Hər il bir qayda olaraq həmin məktəblilərə dəftər-qələmdən tutmuş bütün dərs ləvazimatları, eləcə də dərsliklər hədiyyə edilir.

Azərbaycan tərəfindən Gürcüstanda yaşayan soydaşlarımıza edilən dəstəkdən söz düşəndə ilk növbədə, təbii ki, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr xüsusi vurğulanmalıdır. Fond Gürcüstanda yaşayan soydaşlarımızın sosial-mədəni həyatı ilə daim maraqlanıb, burada təhsilin inkişafı, milli adət-ənənələrimizin qorunub saxlanmasında onlara daim dəstək olub. Xüsusən soydaşlarımızın Gürcüstanda yaşadıqları ərazilərdə məktəblərin yenidən qurulmasında Heydər Əliyev Fondunun rolu böyükdür.

"Təhsilə dəstək" layihəsi çərçivəsində Gürcüstanın azərbaycanlıların yaşadıqları regionlarında təhsilin, məktəb infrastrukturunun inkişafı üçün fond çox mühüm işlər görür. Bu layihə əsasında Gürcüstanda yaşayan soydaşlarımızı da yeni dərs ili ərəfəsində bağışladığı çanta və dərs ləvazimatı ilə sevindirir. Onların təhsillə bağlı problemlərinin aradan qaldırılması üçün hər il dövlət xətti ilə yanaşı, fond tərəfindən də böyük yardımlar edilməsini orada yaşayan soydaşlarımız dərin minnətdarlıq hissi ilə qarşılayırlar.

Ardı 3-cü səh.

# Azərbaycan Almaniyanın mühüm iqtisadi tərəfdaşıdır

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov Almaniyanın paytaxtı Berlinə səfər edib. Oqtay Əsədov sentyabrın 9-da Almaniya Bundestaqının birinci vitse-prezidenti, Berlin şəhərinin meri Mixael Müller, Almaniya Bundestaqının prezidenti Volfqanq Şoyble, Bundestaqın Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Yohannes Kars və qrupun digər üzvləri ilə görüşlər keçirib.

Görüşlərdə Azərbaycanın xarici siyasəti, Almaniya və Avropa İttifaqı ilə münasibətləri, regional məsələlər, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, eləcə də parlamentlərarası əməkdaşlığa dair geniş fikir mübadiləsi aparılıb. İki ölkə arasında siyasi, iqtisadi, elmi, mədəni və digər sahələrdə münasibətlərin dinamik inkişaf etməsi, Azərbaycan və Almaniya arasında baş tutan yüksəksəviyyəli səfərlər, hər iki ölkənin parlamentində fəaliyyət göstərən aidiyyəti dostluq qruplarının ikitərəfli münasibətlərə verdiyi töhfələr, Milli Məclis və Bundestaq deputatları arasında beynəlxalq təşkilatlar səviyyəsində mövcud olan konstruktiv əməkdaşlıq xüsusilə vurğulanıb.

Milli Məclisin Sədri Azərbaycanın Avropa, o cümlədən Almaniyanın enerji təhlükəsizliyinə töhfələri, regionda həyata keçirdiyi nəhəng enerji və nəqliyyat layihələri, "Cənub qaz dəhlizi"nin icrası, Şimal-Cənub və Qərb-Şərq nəqliyyat dəhlizlərinin inkişafına xidmət edən layihələr, ölkəmizin çətin geosiyasi regionda yerləşməsinə baxmayaraq, müstəqil və milli maraqlara söykənən siyasət yürütməsi, eləcə də Ermənistanın hərbi təcavüzünün nəticələri və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə məlumat verib. Oqtay Əsədov Almaniya Bundestaqının Azərbaycanın ərazi bütövlüyünə dəstək verən qətnamə qəbul etməsini məmnunluqla xatırlayaraq Almaniyanı Minsk qrupunun üzvü kimi münaqişənin həllinə fəal töhfə verməyə çağırıb. O, Bundestaqın prezidenti Volfqanq Şoyble və Bundestaqın birinci vitse-prezidenti Mixael Mülleri Azərbaycana səfərə dəvət edib.

Almaniya rəsmiləri Azərbaycanı Almaniyanın mühüm iqtisadi tərəfdaşı adlandırıblar və ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın dərinləşməsindən məmnunluq ifadə ediblər. Azərbaycanın regionda sabitləşdirici faktor olması, Avropa ölkələri ilə sıx əməkdaşlıq münasibətlərinin qurulmasına yönələn xarici siyasət yürütməsi, xüsusilə Almaniya ilə münasibətlərin dərinləşməsinə mühüm önəm verməsi, Almaniyanın müxtəlif bölgələri ilə əlaqələrin qurulmasına və cəmiyyətin müxtəlif sahələrində birbaşa təmasların və tərəfdaşlıqların meydana gəlməsinə maraq göstərməsi, ölkəmizdə alman irsinin dövlət səviyyəsində qorunması və alman dilinin tədrisinin geniş vüsət alması Almaniya tərəfdən məmnunluqla qarşılanıb. Alman parlamentariləri eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə dəstək verməyə hazır olduqlarını qeyd ediblər.

Ardı 2-ci səh.

# Gənclər qitələrarası siyasi və ictimai münasibətlər müstəvisində də birləşirlər

### Bakıda keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Gənclər Qolunun 5-ci və Qadınlar Qolunun 6-cı iclasında bu məsələ müzakirə edildi

Gənclərə qayğı respublikamızda yürüdülən dövlət siyasətinin prioritetlərindəndir. Son illər ölkə gənclərinin istər istehsalatda, istərsə də idman və mədəniyyət sahəsindəki uğurları diqqət çəkməkdədir.

Bu, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin real bəhrəsidir. Ümummilli Liderin təşəbbüsü ilə hələ sovetlər birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülmüş, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşmasına başlanmışdı.

Bugünkü gəncliyin potensialının üzə çıxarılması və onların bacarıqlarından maksimum istifadə dövlət gənclər siyasətinin əsasını təşkil edir. Məhz bunun nəticəsidir ki, onlar istər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda uğurlu fəaliyyətləri ilə seçilirlər.

Gənclər siyasətinin vacib istiqamətlərindən biri də beynəlxalq təmsilçilikdir. İndi gənclər Azərbaycanın inkişafı və həqiqətlərini dünya ictimaiyyətinə yüksək tribunalardan çatdırırlar. Azərbaycan əhalisinin əksəriyyətinin gənclərdən ibarət olması isə ölkəmizin davamlı inkişafının təminatıdır. Deməli, gəncliyin əsas yolu və vəzifəsi ilk növbədə Prezidentin ətrafında daha sıx birləşərək azərbaycançılıq ideologiyasına sədaqətlə xidmət etməkdir.

Prezident İlham Əliyev üzünü gənclərə tutaraq demişdi: "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Dövlət başçısı əlavə etdi ki, Azərbaycanda müasir gənclər siyasəti 1994-cü ildə başlamışdır. Həmin il Ulu Öndər Gənclər və İdman Nazirliyini yaratmışdı: "Bu, çox əlamətdar hadisə idi. Azərbaycanda gənclər siyasəti məhz 1994-cü ildən icra edilməyə başlanılmışdır... Gəncə şəhəri 2016-cı ildə Avropa Gənclər Paytaxtı adına layiq görülmüşdür. Biz Azərbaycanda müxtəlif beynəlxalq tədbirlər, o cümlədən 170 ölkədən nümayəndənin iştirak etdiyi Dünya Skaut Hərəkatı Təşkilatının konfransını keçirmişik. Bütün bunlar onu göstərir ki, bu istiqamətdə düzgün addımlar atılır və bundan sonra da atılacaq.

Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik".

Son illər paytaxt Bakının bir sıra beynəlxalq tədbirlərə evsahibliyi etməsi ənənə halını alıb. Belə tədbirlərin arasında gənclərlə bağlı olanlar da az deyil.

Ardı 5-ci səh.



# Şahinlərimiz peşəkarlıqlarını yüksəldirlər

### "TurAz Qartalı - 2019" təlimində 30-dək aviasiya vasitəsi real döyüş tapşırıqlarını yerinə yetirir

Azərbaycan Silahlı Qüvvələrində döyüş qabiliyyətinin artırılması üçün görülən işlər yalnız yeni hərbi texnikalar alınması ilə yekunlaşmır. Eyni zamanda mütəmadi olaraq keçirilən hərbi təlimlərdə müasir döyüş vərdişləri artırılır. Bu məsələ Ali Baş Komandan İlham Əliyevin xüsusilə nəzarətindədir. Təsdiq edilən plana əsasən il ərzində bir neçə dəfə müxtəlif qoşun növlərinin iştirakı ilə hərbi təlimlər keçirilir.

## Hərbi gücün artırılması prioritetdir

Bu gün dünyanın bir sıra yerlərindəki müharibə ocaqları ayrı-ayrı dövlətlərin həm öz ordularının döyüş təcrübəsini artırdıqları, həm də yeni silahları real hərbi əməliyyatlar şəraitində sınaqdan keçirdikləri bir meydandır. Azərbaycan isə dünyanın başqa yerlərində, sülhməramlı missiya istisna olmaqla, birbaşa hərbi əməliyyatlarda iştirak etmir.

Ardı 2-ci səh.

# Azərbaycan dünyada ən zəngin neft-qaz infrastrukturuna malik ölkələrdəndir

"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi üçün Xəzərdə zəngin dəniz infrastrukturunun yaradılması - hasilat, qazma, yaşayış, kompressor və suvurma platformalarının quraşdırılması, nefti və qazı quru əraziyə çatdırmaq üçün sualtı kəmərlərin çəkilişi tələb olundu.

Müasir dəniz qurğularının tikintisi öz növbəsində inşaat meydançalarının yüksək səviyyədə olması zərurətini ortaya çıxardı.

Ardı 4-cü səh.



# Ermənistanda siyasi gərginlik ən yüksək həddə çatıb

### Paşinyanla keçmiş hərbi xunta arasında ziddiyyətlər daha da dərinləşir

Ermənistanda hakimiyyət dəyişikliyindən sonra əhali sosial həyatında, yaşayış tərzində müəyyən yeniliklərin olacağını gözləsə də, bu ölkədə baş verənlər bunun tam əksinin yaşandığını nümayiş etdirir.

Mövcud vəziyyət işğalçı ölkədə xaotik durumun daha da dərinləşdiyini, əvvəlki hakimiyyət təmsilçilərinə qarşı yeni repressiya dalğasının başlandığını göstərir. Belə vəziyyətdə insanların maddi rifah halının yaxşılaşması ölkənin ağır durumdan xilası üçün müsbət heç nə vəd etmir.

Baş verənlər Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsində də öz təsirini göstərir, yeni hakimiyyətlə keçmiş hərbi xunta arasında ziddiyyətlər daha da dərinləşir.

Ardı 6-cı səh.

# Azərbaycan Almaniyanın mühüm iqtisadi tərəfdaşıdır











*Əvvəli 1-ci səh.*

Bundestaqda keçirilmiş görüşdə, həmçinin Bakı və Berlin şəhərləri arasında əməkdaşlıq imkanları müzakirə edilib, paytaxt şəhərləri arasında turizm, təhsil, vətəndaş cəmiyyəti əlaqələrinin möhkəmləndirilməsinə hər iki tərəfin marağı ifadə olunub. Mixael Müller Berlin şəhərinin meri kimi bu istiqamətdə təşəbbüslərə dəstək verməyə hazır olduğunu bildirib.

Milli Məclisin Sədri səfər çərçivəsində Bundestaqın plenar iclaslarının keçirildiyi tarixi Reyxstaq binası ilə də tanış olub. O, eləcə də Almaniya Azərbaycanlılarının Koordinasiya Şurasının əlaqələndiricisi Yaşar Musayevi qəbul edib.

Oqtay Əsədovu Milli Məclisin deputatları - Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Xanlar Fətiyev, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev, eləcə də Milli Məclis Aparatının vəzifəli şəxslərindən ibarət böyük nümayəndə heyəti müşayiət edib. Görüşlərdə, həmçinin Azərbaycanın Almaniyada fövqəladə və səlahiyyətli səfiri Ramin Həsənov iştirak edib.

# Nəsimi - 7 böyük ozandan biri

"Əlli il öncə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin (1369-1417) 600 illik yubileyi keçirilmiş, bununla həm ölkəmizdə, həm də xaricdə onun həyat və yaradıcılığına maraq artmışdı. Ana dilimizdə yaratmış olduğu mükəmməl poeziya nümunələri yüz illər boyunca ozanların, muğam ustalarının dilindən düşməyərək milli mədəniyyətimizin inkişafına misilsiz töhfələr verən qüdrətli sufi şairin əlyazmalarının tədqiqi həmin vaxtdan etibarən genişlənmiş, əsərləri kütləvi tirajla çap edilmişdi. Təsadüfi deyil ki, İmadəddin Nəsiminin təbliğində xüsusi yeri olan film də məhz Ulu Öndər Heydər Əliyevin sovet Azərbaycanında hakimiyyətdə olduğu zamanda - İsa Hüseynovun (Muğanna) ssenarisi əsasında rejissor Həsən Seyidbəyli tərəfindən 1973-cü ildə çəkilmiş, baş rolun ifaçısı, o dövrdə gənc olan istedadlı aktyorumuz Rasim Balayevin yaratdığı obraz xalqımız tərəfindən böyük sevgi ilə qarşılanmışdı".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsində paylaşdığı statusda yer alıb.




Əli Həsənov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncama əsasən işıq üzü görən, oxuculara təqdim və ölkə kitabxanalarına hədiyyə edilən nəşrlər arasında, heç şübhəsiz, Nəsiminin əsərləri də yer almışdı. Hər kəsə o da yaxşı məlumdur ki, dövlət başçısı Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq içərisində olduğumuz 2019-cu ili "Nəsimi ili" elan edib. Prezidentin bu sərəncamından irəli gələrək il ərzində xalqımızın ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş şair haqqında çox sayda elmi və mədəni tədbir keçirilib, araşdırmalar aparılıb, o cümlədən kütləvi informasiya vasitələrində sanballı məqalələr dərc olunub. Tədbirlər davam edir.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkiləcək. Bu barədə yayılan açıqlamadan xəbərdarsınız ki, böyük şairin dünya əhəmiyyətli poeziyasının beynəlxalq aləmdə təbliği, xatirəsinin əbədiləşdirilməsi, Azərbaycanın ədəbi və mədəni irsinin tanıdılması məqsədi daşıyan bu nəcib təşəbbüsə respublikamızın bütün bölgələrində ictimaiyyət nümayəndələri, həmçinin dövlət və hökumət qurumlarının, diplomatik korpusun, icra hakimiyyətləri orqanlarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və könüllü gənclər qoşulacaqlar.

"Zənnimcə, "Nəsimi ili"nə gözəl töhfələrdən birini də "Youtube" kanalındakı hesabına yerləşdirdiyi son bəstəsi ilə soydaşımız, Azərbaycan əsilli Britaniya sənətçisi Sami Yusif verdi. Onun "Şur" muğamının ladları üzərində gəzişərək ərsəyə gətirdiyi "Nəsimi" kompozisiyası sosial şəbəkələrdə qısa zamanda populyarlaşdı və böyük rəğbətlə qarşılandı. Müntəzəm olaraq Azərbaycana gələn, ötən ilin sentyabrında Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalında iştirak etmiş Sami kimi məşhur, açıq konsertlərinə yüz minlərlə tamaşaçı toplanan bir sənətçinin klassik poeziyamızın pərəstişkarı olması, mənəvi dünyamızın incilərini yeni və peşəkar formada bütün dünyaya yayması, əlbəttə, təqdirəlayiqdir. Onun xalq çalğı alətlərimizin müşayiəti ilə milli, klassik və müasir musiqi elementlərini sintez edərək, xanəndə Təyyar Bayramovun, digər sənət adamlarımızın ifasından, bacarığından uğurla yararlanaraq hazırladığı parçanı internetin verdiyi imkanlar sayəsində işə gələrkən yolda dinlədim. Bir dinləyici kimi zövqümü oxşadı. Odur ki, türk dünyasının 7 böyük ozanından biri sayılan Nəsiminin "Sığmazam" rədifli qəzəlinin bu cür ecazkar, ovsunlayıcı musiqiyə çevrilməsinə əmək sərf etmiş hər kəsə təşəkkür edir, böyük məmnuniyyətlə videosunu sizlərlə - öz "Facebook" dostlarımla paylaşıram. Paylaşıram həm də ona görə ki, Heydər Əliyevin və İlham Əliyevin Nəsimi kimi tarixi şəxsiyyətlərimizi, mütəfəkkirlərimizi cəmiyyətimizin və bütün dünyanın nəzərində ucaltmaqla standart məkan qəliblərinə sığmadıqları barədə qənaətimi bir daha sizlərlə bölüşüm".

# *Dmitri SAVELYEV:* "Təhlükəsizlik sahəsində təcrübə mübadiləsi Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərinin mühüm tərkib hissəsidir"

Rusiya ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyət prosesləri xeyli sürətlənməkdədir: cəmi bir həftə ərzində Azərbaycan nümayəndə heyəti Şərq İqtisadi Forumunun işində iştirak edib, Rusiya Təhlükəsizlik Şurasının katibi isə Bakıda öz həmkarı ilə görüşüb. Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev bu və digər proseslərin perspektivlərini şərh edir.



*- Dmitri İvanoviç, iqtisadiyyat sahəsində Rusiya-Azərbaycan tərəfdaşlığının dinamikası bizim söhbətlərimizin daimi mövzusudur. Qarşılıqlı əmtəə dövriyyəsində vəziyyət necədir?*

- Bəri başdan qeyd etməliyəm ki, son illərdə Rusiya Azərbaycanın ticarət tərəfdaşlarının siyahısında davamlı olaraq aparıcı yerlərdən birini tutur, ölkələrimiz arasında ticarətin həcmi isə durmadan artır: cari ilin 7 ayı ərzində əmtəə dövriyyəsinin həcmi 1,6 milyard dollar olub. Bu, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 23 faiz çoxdur. Bu il yayda Azərbaycan Rusiyadan taxıl alınması üzrə rekord göstərib: Ulyanovsk vilayətindən ixrac edilən taxılın 70 faizi azərbaycanlı istehlakçılara göndərilib, Azərbaycana taxıl satan ənənəvi tərəfdaş olan Stavropol diyarı isə bu respublikaya 146 min ton taxıl yola salıb. Bu, bir il əvvəlki ilə müqayisədə üç dəfə çoxdur.

*- Bu yaxınlarda Bakıda başa çatmış biznes-missiya hər hansı yeni meyilləri aşkar edibmi?*

- Azərbaycanın təşəbbüsü ilə başlanmış bu pilot təcrübəsi uğurlu olub: Rusiyanın yeddi regionundan 30-dan çox şirkət öz potensialını Azərbaycan biznes birliyinə təqdim etməyə gəlmişdi. Qarşı tərəfin bu tədbirə marağı çox böyük idi: Azərbaycan tərəfindən 16 sahəni təmsil edən 150 müəssisə bu görüşə qoşulmuşdu. Biznes-missiya dövründə üç kontrakt imzalandı, daha bir neçə saziş isə ilkin razılaşma mərhələsindədir. Rusiyadan ixracın yeni perspektivli istiqamətləri arasında süd məhsulları, taxta-şalban, faner və tikinti armaturunun adlarını çəkmək olar. Azərbaycanlı tərəfdaşlar bu mallar üçün sifarişlərini bizə təqdim etməyə hazırdırlar.

*- Şərq İqtisadi Forumu azərbaycanlı sahibkarlarda maraq doğura bildimi?*

- Bu maraq qarşılıqlıdır. Üstəlik, dünyada iqtisadi inkişaf sürətinin azalması şəraitində Azərbaycan iqtisadiyyatı kimi inkişaf etməkdə olan iqtisadiyyat iri investorlarda güclü maraq oyadır. Fikrimcə, Odlar Diyarını çoxlu ciddi biznes təklifləri gözləyir. Forum özü isə Azərbaycan üçün ona görə maraqlıdır ki, o, qeyri-iqtisadi səbəblərə görə biznes əlaqələrini məhdudlaşdıran Avropa bazarları ilə müqayisədə siyasi şəraitin qat-qat sərfəli olduğu Asiya bazarlarına yol açır. Azərbaycan Avrasiya məkanında həyata keçirilən bir sıra layihələrdə fəal iştirak edir və bu meyil güclənməkdədir, çünki Azərbaycanın nəqliyyat-logistika potensialı qitə miqyasında inteqrasiyanı gücləndirir. Yeri gəlmişkən, forum müddətində Rusiya ilə Hindistan arasında imzalanmış sənədlər paketi gömrüklə bağlı və digər maneələrin çoxunu aradan qaldırır. Bu o deməkdir ki, Azərbaycanın dəmir yol və dəniz nəqliyyat imkanlarının cəlb edildiyi "Şimal-Cənub" nəqliyyat dəhlizi daha dinamik fəaliyyət göstərəcək. Bu da öz növbəsində, respublikanın regionda iqtisadi və siyasi mövqelərini xeyli gücləndirəcək.

*- Son vaxtlar Azərbaycan kibertəhlükəsizlik strategiyasının işlənib hazırlanması ilə məşğuldur. Bu strategiyanın zəruriliyi nə ilə bağlıdır?*

- Ölkələrimiz beynəlxalq terrorizm və transmilli cinayətkarlıqla bağlı, əvvəllər misli görünməmiş çağırışlarla üzləşir. Belə çağırışlardan biri texnoloji xarakter daşıyır. Dünya yeni dövrə - məlumat axınına nəzarət sistemlərinin rəqabəti dövrünə qədəm qoyub. Bu halda informasiya mühiti müxtəlif kibernetik hücumlar nəticəsində deformasiyaya məruz qalır. Buna görə də biz xarici informasiya təhlükəsizliyi sistemlərini birlikdə yaratmalıyıq və burada Rusiya Azərbaycana çox kömək edə bilər. Məsələn, bizim xüsusi xidmətlərin nümayəndələri azərbaycanlı həmkarlarına xəbərdarlıq ediblər ki, ilk baxışda heç bir şübhə doğurmayan kompüter oyunlarının və kvestlərin köməyi ilə gəncləri terror qruplarına cəlb etməyin yeni formaları yaranıb. Düşünürəm ki, bu xəbərdarlıq Azərbaycanın hüquq mühafizə orqanları tərəfindən ekstremistlərin vaxtında aşkar olunmasına kömək edəcək. Beləliklə, təhlükəsizlik sahəsində təcrübə mübadiləsi Rusiya ilə Azərbaycanın qarşılıqlı münasibətlərinin mühüm tərkib hissəsinə çevrilir.

# Şahinlərimiz peşəkarlıqlarını yüksəldirlər

*Əvvəli 1-ci səh.*

Lakin mütəmadi olaraq keçirilən hərbi təlimlərdə ordumzun müasir döyüş vərdişləri artırılır. Genişmiqyaslı əməliyyat-taktiki təlimlərində qoşunların döyüşə tam hazırolma vəziyyətinə gətirilməsi, qüvvələrin təyin olunan məntəqələrə çıxışı, onların qarşılıqlı fəaliyyəti və yenidən qruplaşması, idarəetmənin koordinasiyası, müdafiənin aparılması, əks-hücum əməliyyatının hazırlanması, silahların döyüş şəraitində tətbiqi kimi vacib məsələlər sınaqdan çıxarılır. Xüsusən mürəkkəb dağlıq relyef və radioelektron xüsusiyyətlər şəraitində baş tutan təlimlərdə hərbçilərimiz müasir ümumqoşun əməliyyatlarının keçirilməsinin müxtəlif üsullarının icrası üzrə bacarıq və vərdişlərini praktiki olaraq təkmilləşdirirlər.





Hər il keçirilən belə təlimlərdən biri "TurAz Qartalı" adlanır. Azərbaycan və Türkiyənin hər il birgə keçirdiyi bu təlim artıq ənənə halını alıb və ölkəmizin Hərbi Hava Qüvvələrinin müasir döyüş vərdişlərinin artırılmasında olduqca mühüm rol oynayır. Lakin öncə onu qeyd edək ki, hərbi gücünə görə NATO-nun liderlərindən olan Türkiyə ilə Azərbaycan arasında müdafiə sahəsində uzun illərdən bəri dərin əməkdaşlıq mövcuddur. Türkiyə hərbçiləri hələ ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq Azərbaycan Silahlı Qüvvələrinin təlim-təhsil işində yaxından iştirak etməyə başlamış, sonralar hərbi əlaqələr bir çox sahələri əhatə etmişdir. Türkiyə dövləti Azərbaycan Silahlı Qüvvələrinin NATO-nun standartlarına uyğunlaşdırılmasına, müdafiə sənayesi kompleksinin inkişafına mühüm töhfələr verib. Qarşılıqlı etimada əsaslanan hərbi əlaqələr həm də bölgədə sülhün, sabitliyin, davamlı inkişafın və iki dövlətin xalqlarının rifahının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

İndi iki ölkənin hərbi əməkdaşlığı müdafiə sahəsinin demək olar ki, bütün istiqamətlərini əhatə edir. Bu sırada hər il keçirilən, o cümlədən Naxçıvanda reallaşan birgə təlimlər aktuallığı ilə cəlb edir. Ona görə ki, ilk növbədə, Türkiyə NATO-nun üzvüdür, həm də hərbi gücünə görə əksər üzv dövlətlərdən öndədir. Belə bir ölkənin ordusu ilə birgə hərbi təlimlərin keçirilməsi Azərbaycan Ordusunun ən müasir döyüş imkanlarını mənimsəməsində böyük rol oynayır.

## Ermənistan narahatdır

"TurAz Qartalı - 2019" birgə taktiki-uçuş təlimlərinə sentyabr ayının 2-dən start verilib. Təlimlərdə MiQ-29, F-16, Su-25, P-235 "Kasa" təyyarələri, Mi-35, Mi-17, "Sikorski" UH-70, CH-47 "Çinok" və ATAK/AH-1W helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edir. Budəfəki təlimlərdə Azərbaycan və Türkiyənin Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarının aviasiya vasitələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetirilir.

Sentyabrın 16-dək keçiriləcək təlim isə iki ölkənin müdafiə sahəsində uğurlu əməkdaşlığının növbəti göstəricisi olacaq, həm də orduların təcrübə mübadiləsində mühüm rol oynayacaq. Məsələnin digər tərəfi isə bu cür təlimlərin Ermənistanda ciddi narahatlıqla qarşılanmasıdır. Xüsusən Azərbaycanın Naxçıvanda hərbi gücünü artırması Ermənistan hərbi-siyasi dairələrində ciddi təşvişlə izlənilir. Bu ölkənin bir sıra ekspertləri hakimiyyətin təlimatına uyğun olaraq danışsalar da, reallığı anlayanlar tamamilə başqa fikirdədirlər. Məsələn, Ermənistan ordusunun ehtiyatda olan polkovniki Volodya Hovhanisyan Azərbaycan-Türkiyə arasında birgə təlimlərin mütəmadi xarakter daşıdığını xatırladıb və onların bir çox hallarda Ermənistan sərhədinin yaxınlığında keçirildiyini yada salıb. "Hər bir təlim döyüş hazırlığı səviyyəsinin artırılması istiqamətində yeni mərhələyə qədəm qoymaq deməkdir. Təlimlər zamanı müxtəlif taktiki epizodlar icra olunur, planlar hazırlanır. Başqa sözlə, təlimlərdə iştirak edən əsgərlər və zabitlər hərbi əməliyyatların aparılması təcrübəsini qazanır. Deməli, gələcəkdə müharibə baş verərsə, onların bu təcrübəsindən istifadə olunacaq. İndiki mərhələdə Azərbaycan Silahlı Qüvvələrinin əsas məqsədi Dağlıq Qarabağı və onun ətrafındakı 7 rayonu geri almaqdır. Mən Ermənistan ordusunun buna necə qarşılıq verə biləcəyini bilmərəm. İstənilən halda, Azərbaycanın Türkiyə ilə birgə belə miqyaslı hərbi təlimlər keçirməsi çox düşündürücüdür" deyə o bildirib.

Ermənilərin Naxçıvanla bağlı təlaşları daha çoxdur. Prezident İlham Əliyevin 2013-cü ilin dekabrında imzaladığı fərmanla Naxçıvan Muxtar Respublikasının müdafiəsinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə Əlahiddə Ümumqoşun Ordusu yaradılıb. Yüksək döyüş qabiliyyəti ilə seçilən və müasir hərbi texnikalarla tam təchiz edilən Əlahiddə Ümumqoşun Ordusu regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə istənilən döyüş əməliyyatlarının koordinasiyasını həyata keçirmək və qarşıya qoyulan bütün vəzifələri dəqiqliklə yerinə yetirmək imkanına malikdir.

Bütün bunlar, o cümlədən Naxçıvanda Türkiyə ilə birgə hərbi təlimlərin sayının artması isə qeyd edildiyi kimi, Ermənistanda narahatlıq yaradır. Hazırda Cənubi Qafqazın ən qüdrətli hərbi gücünə malik Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Bu baxımdan ən müasir döyüş imkanlarına malik Azərbaycan Ordusunun hər bir təliminin məqsədinin nə olduğunu Ermənistanda yaxşı anlayırlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Növbəti uçuşlar icra olunub

"TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərinin planına uyğun olaraq növbəti uçuşlar yerinə yetirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın və Türkiyənin 30-dək hərbi aviasiya vasitəsinin cəlb olunduğu təlimlər sentyabrın 16-dək davam edəcək.

# Mətbuat nümayəndələri "TurAz Qartalı-2019" birgə təlimlərinin gedişini izləyiblər

"TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərində Azərbaycan və Türkiyənin aviasiya vasitələri iştirak edir. Sentyabrın 10-da mətbuat nümayəndələri "TurAz Qartalı-2019" birgə təlimlərinin gedişini izləyiblər.

AZƏRTAC xəbər verir ki, təlimlərdə iştirak edən hər iki ölkənin hərbi aviasiyası müştərək fəaliyyətlərin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi, hava döyüşlərinin icrası və digər tapşırıqların yerinə yetirilməsi məqsədilə uçuşlar həyata keçirir. Azərbaycan Hərbi Hava Qüvvələrinin zabiti Faiq Əliyev jurnalistlərə müsahibəsində bildirib ki, sentyabrın 10-da keçirilən təlimlərdə iki ədəd "F-16" qırıcı təyyarəsi Azərbaycanın hava məkanında təyin edilmiş bölgədə "MiQ-29" və "Su-25" təyyarələri ilə görüşərək önləmə və "Hava-Hava-Yer" tapşırıqlarını yerinə yetirməklə şərti düşmən hədəflərinə zərbələr endiriblər.

Təlimlər sentyabrın 16-dək davam edəcək.

## Yeni dərs ili qarşısında

# Təhsil xalqın və dövlətin uğurlu gələcəyinə aparan işıqlı yoldur

Əvvəli 1-ci səh.



Ənənəyə sadiq qalan Heydər Əliyev Fondunun təşəbbüsü ilə aztəminatlı ailələrin 2019-2020-ci tədris ilində birinci sinfə gedən övladlarına dərs ləvazimatlarından ibarət hədiyyələr verilməsinə başlanıb. Hədiyyələr ünvanlı sosial yardım alan ailələrin birinci sinif şagirdləri üçün nəzərdə tutulub. Heydər Əliyev Fondunun sifarişi ilə aztəminatlı ailələr üçün hazırlanan hədiyyə dəsti çanta və gündəlik məktəb ləvazimatlarından ibarətdir ki, onlar sentyabrın 15-dək birinci sinif şagirdlərinə çatdırılacaq.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva hər il respublikamızın ayrı-ayrı bölgələrində fəaliyyət göstərən təlim-tədris müəssisələrində yaradılan şəraitlə yerində tanış olur. Ənənəvi xarakter daşıyan missiya bu il də unudulmayıb. Azərbaycanın Birinci vitse-prezidenti paytaxt Bakının, demək olar ki, əksər rayonlarında, eləcə də Gəncə və Şamaxıda olarkən məktəb və bağçalarda onların problemləri ilə maraqlanıb.

Bu gün təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərə seçdikləri ixtisas istiqamətləri üzrə daha yaxşı hazırlaşmaq imkanı yaratmaq məqsədilə ölkədə 60-dan artıq məktəbdə 10-cu siniflər üzrə komplektləşdirmə aparılıb. Belə ki, dörd istiqamət üzrə 200-dək təmayüllü sinif fəaliyyət göstərir. Bundan başqa, istedadlı şagirdlərin aşkar olunması və onların potensialının inkişaf etdirilməsi məqsədilə ciddi tədbirlər görülür. Bu baxımdan fənn olimpiadaları və bilik yarışları xüsusi əhəmiyyət kəsb edir. Təkcə bir ildə 25 minə yaxın şagird respublika fənn olimpiadalarında iştirak edib. Bunun nəticəsində yeniyetmələr dünya fənn olimpiadalarında gümüş və bürünc medallar qazanıblar. Dünyanın 80 ölkəsindən 300 məktəblinin iştirak etdiyi 47-ci Beynəlxalq Kimya Olimpiadasının paytaxt Bakıda keçirilməsi, 2019-cu ildə Beynəlxalq İnformatika Olimpiadasının ölkəmizdə təşkil olunması heç də təsadüfi deyil. Bu, həm də o deməkdir ki, artıq paytaxtımız beynəlxalq bilik yarışlarına da evsahibliyi edir.

Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələr və nəzərdə tutulan proqramların müntəzəm reallaşması həm də Azərbaycanı qloballaşan dünyanın dəyərlərinə təhsil və elm sayəsində qovuşdurmaq məqsədi daşıyır.













*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

# Aşura günü ilə bağlı qanvermə aksiyası keçirilib



### Bakı

Aşura günü ilə bağlı Təzəpir məscidində ənənəvi qanvermə aksiyası keçirilib. AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatları, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri də aksiyaya qoşulublar. Könüllü aksiya irsi qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədilə Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçirilib.

Aksiya çərçivəsində jurnalistlərə açıqlama verən Şeyxülislam Allahşükür Paşazadə deyib ki, ehtiyacı olan insanlara qan vermək şəriətin və dinin istəyidir. Şeyxülislam bildirib ki, Azərbaycanda Aşura günü ənənəsi hələ də yaşadılır. Bu gün zəncirvurma, başyarma, qançıxarma halları bəyənilmir. Buna görə də qərara alındı ki, qanvermə aksiyası təşkil olunsun. Öz qanımızı verməklə xəstə insanlara kömək edirik. Bu, şəriətin və dinin istəyidir. QMİ sədri deyib ki, hazırda Azərbaycanın bir çox məscidlərində qanvermə aksiyası davam edir. Sevindirici haldır ki, Azərbaycandan sonra qonşu ölkə olan İran və Türkiyədə də bu ənənə vüsət alıb: "Bu, savab işdir. Vətən uğrunda həlak olan bütün şəhidlərimizə də başsağlığı verirəm" - deyə Allahşükür Paşazadə qeyd edib.

### Naxçıvan



Ümummilli Lider Heydər Əliyev deyib: "Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən-nəsillərə keçib, yaşayıb, bu günlərə gəlib çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir".

Bu gün muxtar respublikada dini-mənəvi dəyərlərimiz də qorunub yaşadılır, islam elmi cəhətdən öyrənilir və təbliğ edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Cümə məscidində keçirilən Aşura mərasimində iştirak edib.

Mərasimdə "Qurani-Kərim"dən ayələr oxunub, dualar edilib, ehsan verilib.

Dindar Ağalar Bayramov deyib: "Muxtar respublikamız inkişaf edir, abadlaşır, quruculuq işləri aparılır. Bununla yanaşı, mənəvi dəyərlərimiz də qorunur, yeni məscidlər tikilir, dindarlar üçün ibadət şəraiti yaradılır. Aşura mərasimlərinin islamın dəyərlərinə uyğun qeyd olunması da bu tədbirlərin davamıdır". Ağalar Bayramov dini-mənəvi dəyərlərimizin yaşadılması sahəsində həyata keçirilən tədbirlərə görə muxtar respublika dindarları adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Məhərrəm ayının 10-cu günü - Aşura islam tarixinə İmam Hüseyn və tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi daxil olub. İmam Hüseyn islahatçı olub, insanları doğruya dəvət edib, bu yolda öz həyatını və yaxınlarını qurban verib. Bu mənada Aşura mərasimləri yalnız yas tutmaq deyil, həm də İmam Hüseynin yolunun davam etdirilməsi, islam dininə sadiqlik deməkdir. Muxtar respublikada keçirilən Aşura mərasimlərində də insanlar bu mənəvi dəyərlər ətrafında həmrəy olub, məscidlərdə qanvermə aksiyaları keçirilib, ehtiyacı olanlara həyat verilib.

### Masallı



Aksiya zamanı yığılan qan nümunələri Lənkəran Regional Qan Bankına təhvil veriləcək.

Sentyabrın 10-da Aşura günü ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə ölkəmizin bir sıra şəhər və rayonlarında, o cümlədən Masallı şəhərində qanvermə aksiyası keçirilib. AZƏRTAC xəbər verir ki, Masallı şəhərindəki Cümə məscidində keçirilən qanvermə aksiyasında 150-dən çox könüllü iştirak edib.

Xeyirxahlığı, insanlığı, vətənpərvərliyi özündə ehtiva edən aksiyada əhalinin bütün təbəqələri təmsil olunub.

Mərkəzi Qan Bankının Lənkəran Bölməsinin və Masallı Rayon Mərkəzi Xəstəxanasının həkim və tibb işçiləri tərəfindən qan verməyə gələn sakinlərin sağlamlığı əvvəlcədən yoxlanılıb.

### Ağsu



Sentyabrın 10-da Aşura günü Ağsuda qanvermə aksiyası keçirilib. Ağsu şəhər Mərkəzi Dini İcma Nuran-Xatun məscidinin və rayon mərkəzi xəstəxanasının birgə təşkilatçılığı ilə keçirilən humanist aksiyada dini icma sədrləri, imamlar və din xadimləri, habelə könüllülər iştirak ediblər. AZƏRTAC xəbər verir ki, rayon mərkəzi xəstəxanasında donorlar ixtisaslı həkimlər tərəfindən hərtərəfli müayinə olunublar. 127 nəfərdən qan götürülüb.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi hacı Nurəddin İslamov AZƏRTAC-a təlassemiya və hematologiya xəstəliyindən əziyyət çəkənlər üçün təşkil edilən humanist aksiyada insanların fəallığını diqqətə çatdıraraq deyib: "Hz.İmam Hüseynin şəhid olduğu bu gün hər bir müsəlman üçün ağrılıdır. İnsanların Aşura günündə qanvermə aksiyasında bu cür fəallıq göstərmələri çox təsirlidir. Bu aksiya onların Hz.İmam Hüseynə məhəbbət və ehtiramlarının nümayişidir. Bu gün hər bir Azərbaycan vətəndaşı öz imamlarının, eləcə də azadlığımız və torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərimizin ruhunu ehtiramla yad edir".

# Aşura günündə 2641,1 litr qan tədarük olunub

Aşura günü ilə əlaqədar Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən irsi qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədilə könüllü qanvermə aksiyaları keçirilib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, paytaxtda və bölgələrdə təşkil olunan qanvermə aksiyalarında saat 9:00-dan 18:00-a qədər 5809 nəfər könüllü olaraq qan verib. Ümumilikdə isə 2641,1 litr qan tədarük olunub.

Qeyd edək ki, qanvermə aksiyaları 25 şəhər və rayon üzrə 33 yerdə təşkil olunub.

Bakı şəhəri üzrə: Binəqədi rayonu "İmam Əli məscidi", Xəzər rayonu 14 saylı Birləşmiş şəhər xəstəxanası və "Mir Mövsüm Ağa ziyarətgahı", Nəsimi rayonu "Əjdər bəy" məscidi (mərasim zalı) və 20 saylı şəhər poliklinikası, Nizami rayonu "Şah Abbas" məscidi, "Sahibəzzaman" məscidi, Sabunçu rayonu "Rəhimə xanım ziyarətgahı", "İmam Rza" məscidi, Səbail rayonu "Bibiheybət məscid ziyarətgahı", Suraxanı rayonu "Qaraçuxur" məscidi, Yasamal rayonu "Təzəpir" məscidi, "Hacı Cavad" məscidi və "Hacı Soltanəli" məscidi;

Bölgələrdə: Gəncə şəhəri "İmamzadə kompleksi", Lənkəran şəhəri "Böyük bazar" məscidi, Mingəçevir şəhəri "Heydər" məscidi, Sumqayıt şəhər "Cümə" məscidi, Şəki şəhəri "İmam Əli" məscidi, Mərkəzi Qan Bankının Şirvan bölməsi, Ağcabədi Mərkəzi rayon xəstəxanası, Beyləqan Mərkəzi rayon xəstəxanası, Bərdə rayonu "Bərdə İmamzadəsi", Biləsuvar rayonu "Cümə" məscidi (mərasim zalı), Cəlilabad Mərkəzi rayon xəstəxanası, Xaçmaz şəhər məscidi, Ağsu Mərkəzi rayon xəstəxanası, Qan Bankının Quba bölgəsi, Masallı şəhər "Cümə" məscidi.

Götürülmüş qanlar Mərkəzi Qan Bankına göndərilib, hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan bütün xəstələrin müalicəsində istifadə ediləcək.

# Prezident təqaüdçüsü olduğum üçün çox qürurluyam

**Builki ali məktəblərə qəbul imtahanlarında 692.5 balla III qrup üzrə respublika birincisi Sərxan Həsənov ADA Universitetinin hüquqşünaslıq ixtisasını seçib. Seçiminin səbəbini isə belə izah edir: "Aşağı siniflərdən etibarən bütün dərslərimi yaxşı oxuyurdum, amma ixtisas seçimimi hüquq sahəsi üzrə etdim. Çünki hüquqşünaslıq həmişə məni çəkib, uşaq yaşlarımdan bunu arzulamışam. Ona görə də hər zaman bu sahə ilə maraqlanır, araşdırır, məlumat toplayıram. Məqsədim odur ki, seçdiyim ixtisas üzrə püxtələşərək peşəkar hüquqşünas, alim olum".**



Sərxan Sumqayıt şəhəri Həzi Aslanov adına 2 nömrəli tam orta məktəbi bitirib. III sinfə qədər Tovuz rayonunun Mehdi Hümbətov adına Ağbulaq kənd tam orta məktəbində təhsil alıb. Şəhər mühitində daha əhatəli təhsil almaq imkanlarının olduğunu düşünərək, valideynlərinin də məsləhəti ilə Sumqayıta gəlib və qohumuguldə qalaraq təhsilini davam etdirib: "Oxumağa marağım hələ məktəbə getməzdən əvvəl qardaşımdan yaranmışdır. Onunla birlikdə ədəbiyyatdan qəzəllər oxuyur, əzbərləyirdim. İbtidai sinifdə digər uşaqlar kimi hərfləri öyrənmirdim, üzündən sərbəst oxuyurdum. Düşünürəm ki, oxumağı sevməyim və üzərimdə davamlı çalışmağım bugünkü nailiyyətimin zəmini oldu".

### Həyatı daha dərindən qavramaq üçün bədii əsərlər oxuyuram

Məktəbi qızıl medalla bitirən Sərxan oxuduğu müddətdə hər zaman olimpiadalarda fəal iştirak edib. Bu il də ümumrespublika üzrə Azərbaycan dilindən fənn olimpiadasında 2-ci yeri tutaraq gümüş medal qazanıb. Oxumaqla yanaşı intellektual yarışlarda da özünü sınağa çəkən Sərxan "Xəmsə", "Əlaçı" kimi yarışlarda sertifikatlar alıb. "Ölkəmizi tanıyaq" layihəsində həyata keçirilən yarışda qalib olan Sumqayıt komandasının üzvü olub: "İstənilən yarışda qalibiyyət əldə etmək üçün hər hansı bir sahə üzrə çalışmaq, eyni zamanda müxtəlif mənbələrdən araşdırmalar aparmaq, maraqlanmaq, kitablardan öyrənmək lazımdır ki, vəziyyəti dəyərləndirə biləsən. Dərslərimlə paralel bədii kitablar da mütaliə edirdim. Həm yerli, həm də xarici əsərlərin dərsliklərdə verilən qısaldılmış variantını deyil, tam versiyalarını alıb oxumuşam. Bədii əsərləri həm də həyat təcrübəsi qazanmaq üçün oxuyuram. Bir növ əsərlərdə edibin həmin qəhrəmanın timsalında həyatda mənə verə biləcəyi örnəyi özümə götürürəm ki, bu da gələcək addımlarımı atmaqda kömək edir. Bəzən gənclərimiz xarici ədəbiyyata daha çox meyil göstərirlər. Amma dərindən oxuduqca öz ədiblərimizin, məsələn, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin publisistik, ya da bədii əsərlərini oxuyanda da dərin ictimai fikirlər almaq mümkündür".

300 bal buraxılış imtahanından, 392.5 bal isə qəbul imtahanından toplayan Sərxan qeyd edir ki, imtahanların yeni sistemlə keçirilməsi abituriyentlərdə müəyyən həyəcana səbəb oldu ki, bu da nəticələrə təsir göstərdi. Bunlardan biri də heç kəsin 700 bal toplamamasıdır: "Əksər uşaqlar düşündürdü ki, bu il kurikulum sistemi olduğu üçün imtahanda suallar çətin olacaq. Amma sualların səviyyəsini götürsək belə deyildi. Hətta onların 90-95 faizi ənənəvi test sistemi necə idisə, ona uyğunlaşdırılmışdı. Həm də abituriyent açıq tipli sualları yaza bilməsə belə, qapalı sualları yazmaqla ən azı 500-ə yaxın bal toplaya bilərdi. Sadəcə ötən illərə nəzərən nəticələrin nisbətən aşağı olması abituriyentlərdə yaranan həyəcanla bağlı oldu. Onlar özlərini çox qorxutdular. Belə ki, inamsızlıq oldu. Hər kəs düşündü ki, çətindir, yaza bilməyəcək və aşağı bal toplayacaq. Halbuki açıq sualları bir az çətin gözləyirdik, amma, əksinə, daha asan idi".

### Hədəf olmayanda uğur qazanmaq çətindir

Sərxan Həsənov məlumat verir ki, imtahanda kiçik bir diqqətsizliyi ona 700 bal toplamağa mane olub: "3 saatlıq imtahanın bir saat yarımı ərzində demək olar ki, bütün sualları cavablandırıb karta köçürmüşdüm. Yalnız Azərbaycan dilindən bir sualın şərtinə diqqətlə fikir vermədiyim üçün səhv cavablandırmışdım. Elə imtahan binasından çıxan kimi sual kitabçasına baxanda səhvimi başa düşdüm, amma onu düzəltmək gec idi. Buna baxmayaraq təəssüflənməyə dəyməz, çünki topladığım balın mənə yaratdığı üstünlüklər eynilə qalır. Prezident təqaüdçüsü olduğum üçün çox qürurluyam. Seçimimi etdiyim ADA Universiteti ödənişli əsaslarla da olsa, bu il 690 baldan yuxarı toplayanlar 5 il ərzində təhsil haqqından azad olacaqlar. Yalnız davamlı olaraq semestrlərdə yaxşı nəticə göstərilməlidir. Bu da topladığım balın daha bir üstünlüyüdür ki, ödənişdən azad olaraq istədiyim universitetdə təhsil alacam".

"Hədəf olmayanda uğur qazanmaq da çətindir" söyləyən gənc tələbənin fikrincə, qarşısına konkret bir məqsəd qoyanda onu əldə etmək üçün çalışırsan və nəticə də uğurlu olur: "İlk növbədə qarşıma qoyduğum hədəf 5 illik bakalavr təhsilini mükəmməl şəkildə almaqdır. Həmçinin universitetdə oxuyarkən, sonrakı kurslarda təhsili xaricdə davam etdirib Azərbaycana qayıtmaq təklifi də var. Bununla bağlı xarici proqramlara qoşulub təhsilimi bir müddət Avropada davam etdirmək istəyirəm. Düşünürəm ki, nə qədər çox yeni mühitə düşsən daha da püxtələşirsən, təcrübə qazanırsan, yeni insanlar tanıyırsan, ünsiyyət qurub, daha da formalaşırsan. Bakalavrı bitirdikdən sonra magistraturanı da xaricdə oxumaq istəyirəm, Avropa yaxud Amerika ölkələrinin birində".

Sərxan Həsənov onu da vurğulayır ki, doğun təhsil aldıqdan sonra, ixtisaslı kadr kimi ölkəmizə qayıdıb faydalı işlər görmək arzusundadır.

*Yasəmən MUSAYEVA, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Ölkə iqtisadiyyatında işləyənlərin sayı keçən ilin eyni dövrü ilə müqayisədə 4,6 faiz artıb



Avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 4,6 faiz artaraq 1 milyon 613,8 min nəfər olub. Onlardan 902,4 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 711,4 mini isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, muzdla işləyənlərin 20,5 faizi təhsil, 18 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,2 faizi sənaye, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,5 faizi tikinti, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 12,6 faizi isə iqtisadiyyatın digər sahələrində çalışıblar.

Cari ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,4 faiz artaraq 587,7 manat təşkil edib.

İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

## Yeni subsidiya proqramına başlanıb

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Konfederasiyasının (ASK) sosial tərəfdaşları olan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birgə Beynəlxalq Əmək Təşkilatının (BƏT) "Gənclərin layiqli məşğulluq imkanlarının genişləndirilməsi" layihəsi çərçivəsində 12 aylıq subsidiya proqramına başlayıb.

ASK-dan verilən məlumata görə, proqram iş təcrübəsi olmayan gənclərin məşğulluğunun artırılması, onların əmək bazarında layiqli yer tutmaları, işaxtaranlar və işəgötürənlərin təşviq edilməsi məqsədi daşıyır.

Bakının 12 rayonunu əhatə edəcək layihəyə əsasən, işəgötürənlər və BƏT arasında subsidiya müqaviləsi bağlanılır. Bunun əsasında işə götürülən hər bir gəncin 12 ay ərzində əməkhaqqının 50 faizi (vergilər və sosial sığorta haqları daxil olmaqla) işə götürənlərə subsidiya şəklində veriləcək. Proqramın sonunda hər rayon üzrə 4 nəfər olmaqla cəmi 48 nəfər işsiz və iş axtaran vətəndaş rəsmi əmək fəaliyyətinə cəlb ediləcək.

Layihəyə işəgötürənlər olaraq iqtisadiyyatın qeyri-neft sektoru sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektləri müraciət edə bilər.

ASK-ın məlumatında həmçinin bildirilir ki, hər il Azərbaycanda 100-150 min gənc əmək bazarına daxil olur: "Bunu nəzərə alaraq, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi sahəsində aparılan məqsədyönlü siyasətin davamı kimi bu proqram iş təcrübəsi olmayan gənclərə yeni bir imkan yaradır. Həmçinin sahibkarlar bu proqram vasitəsilə işçiyə olan ehtiyacın qarşılanmasında əlavə maliyyə mənbəyi dəstəyi almış olacaq".

## "Aqrolizinq" ucqar kəndlərdə səyyar satış təşkil edəcək

"Aqrolizinq" ASC ucqar kənd və qəsəbələrdə mineral gübrələrin güzəştli şərtlərlə səyyar satışını davam etdirir.

Bu barədə KİV-ə açıqlamasında qurumun İdarə Heyətinin sədri Elmin Rəhmanov məlumat verib. Onun sözlərinə görə, ASC bir ay ərzində respublika üzrə 800 kənd və qəsəbədə səyyar satış təşkil etməyi planlaşdırır.



# İsmayıllı müasirləşir

### İki kənddə tibb məntəqəsi açılıb

İsmayıllının Sumağallı və Sulut kəndlərində Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi qrant yardımı Proqramı" layihəsi çərçivəsində hazırlanan tibb məntəqələrinin açılışı olub.

Sumağallıda keçirilən ilk açılış mərasimində Yaponiyanın Azərbaycandakı səfiri Teruyuki Katori, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov, layihəni həyata keçirən QHT "Gənclər İnkişaf Naminə" İctimai birliyinin rəhbəri Rasim Allazov, digər rəsmi şəxslər, kənd sakinləri, tibb işçiləri, müəllimlər, veteranlar, ağsaqqallar iştirak ediblər. Tədbir Azərbaycanın və Yaponiyanın Dövlət himnlərinin səsləndirilməsi ilə başlanıb.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov çıxış edərək bildirib ki, dövlət müstəqilliyi illərində Azərbaycanla Yaponiya arasında işgüzar və diplomatik əlaqələr daha intensiv xarakter alıb. Bu əlaqələrin səmərəli nəticələri İsmayıllıda da öz əksini tapıb. Regionda ilk şəhər İsmayıllıdır ki, Yaponiyanın İto şəhəri ilə qardaşlıq və dostluq əlaqələri yaradıb. Şagird mübadilələri, distant yolla dil öyrənmək, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri bu əlaqələrin nəticəsi hesab edilməlidir. Yaponiya səfirliyinin dəstəyi ilə istifadəyə verilən tibb məntəqəsi də insan sağlamlığına qayğıdan irəli gəlir. Sumağallı sakinlərinə bəxş olunan bu layihəyə görə Yaponiya dövlətinə, cənab səfirə minnətdarlığımızı bildiririk.

Səfir cənab Teruyuki Katori çıxış edərək deyib ki, Azərbaycandan 7500 kilometr şərqdə olan Yaponiya ilə ölkəniz arasında müstəqillik illərində çox möhkəm əlaqələr yaranıb. Bu əlaqələr başlanğıcını xeyli əvvəl - "İpək yolu" açılan zamandan götürür. Bu əlaqələrin nəticəsi olaraq ölkəmiz Azərbaycanda bir çox layihələr - uşaq bağçası, tibb məntəqəsi, məktəb, içməli su çəkilişi, suvarma sistemləri və digər layihələr həyata keçirib. Sumağallı tibb məntəqəsi İsmayıllıda 15-ci layihəmizdir. Çalışacağıq ki, əlaqələrimiz və layihələrimiz bundan sonra da davamlı olsun.

"Qadın inkişaf qrupu"nun rəhbəri Arzu Mirzəyeva və ağsaqqal ziyalı Hüseyn Xəlilov da çıxış edərək belə dəyərli, vacib sosial layihənin icrası üçün minnətdarlıqlarını bildiriblər.

Sonra tibb məntəqəsinə baxış keçirilib. Səfir uşaqlarla, ağbirçək qadınlarla, iştirakçı sakinlərlə şəkil çəkdirib.

Rəsmi iştirakçıların bir qrupu RİH başçısının birinci müavini Rövşən Ağayevlə birgə Sulut tibb məntəqəsinin açılışına gediblər.

Sumağallı və Sulut tibb məntəqələrinin tikintisinin birgə məbləği 89 min 270 ABŞ dolları təşkil edib.





### Rayonda "Yaşıl market" ticarət mərkəzi fəaliyyət göstərir

İsmayıllı şəhərində "İsgəndər ASA Holdinq Şirkətlər Qrupu" MMC-nin nəzdində yeni fəaliyyətə başlayan "Yaşıl market" ticarət mərkəzi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatların, sahibkarlığın inkişafı üçün yaradılan əlverişli şəraitin bariz nümunəsidir. Ticarət mərkəzi 5 hektar ərazini əhatə edir. Ərazinin 3 hektarı kənd təsərrüfatı və sənaye mallarının satış bazarından ibarətdir. Burada habelə tikinti materiallarının satış bazarı, avtomobillər üçün 2 dayanacaq, namaz otağı, 22 yerlik hotel, 3 yeməkxana və ilkin tibbi xidmət otağı da var.

Ticarət mərkəzinin açılış mərasimi keçirilib.

Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov ölkəmizin davamlı iqtisadi inkişafından söz açıb, yeni ticarət mərkəzində əhaliyə xidmətin yüksək səviyyədə təşkil olunduğunu söyləyib. O, ticarət mərkəzinin daim qonaq-qaralı olan İsmayıllıda küçə ticarətinin yığışmasına təsir göstərəcəyini qeyd edib.

Mərasimdə çıxış edən "İsgəndər ASA Holdinq Şirkətlər Qrupu" MMC-nin vitse-prezidenti Zenfira Quliyeva ticarət mərkəzinin əhaliyə yüksək səviyyədə xidmət göstərmək üçün yaradıldığını bildirib. Natiq bu gün Azərbaycanda Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən sosial layihələrdən, insanların həyat səviyyəsinin gündən-günə yüksəldilməsi istiqamətində görülən işlərdən danışıb. MMC-nin vitse-prezidenti minimum əməkhaqqının, pensiyaların, dövlət qulluqçularının, dövlət büdcəsindən maliyyələşən digər kateqoriyadan olan işçilərin əməkhaqlarının artırılmasının ölkəmizdə insana göstərilən qayğının nümunəsi olduğunu vurğulayıb.

"Yaşıl market" ticarət mərkəzində kənd təsərrüfatı məhsulları digər ticarət obyektlərindən 30-40 faiz, ət məhsulları 10-20 faiz, geyim əşyaları 30 faiz, məktəb ləvazimatları isə 40 faiz ucuz satılır. İdarəetmədə satış qiymətlərinə, habelə sanitar-gigiyenik qaydalara ciddi nəzarət mexanizmi qurulub. Ət kəsimi sexləri və məhsulların saxlanılması qida təhlükəsizliyi qaydalarına tam uyğundur. Hazırda 70 tonluq soyuducu istifadədədir. Əlavə olaraq 2 min tonluq soyuducunun da qurulması nəzərdə tutulur.

***"Azərbaycan"***





## Mikro və kiçik sahibkarların əl işləri sərgidə nümayiş etdiriləcək

Mikro və kiçik sahibkarlar öz əl işlərini II Azərbaycan Beynəlxalq Hədiyyələr və Promo Məhsulları Sərgisində ("Gift & Promo 2019") təqdim edəcəklər.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, sentyabrın 12-14-də keçiriləcək sərgidə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) tərəfdaşlığı ilə yaradılacaq xüsusi stenddə əsasən mikro və kiçik qadın sahibkarların əl işləri nümayiş olunacaq. Stenddə suvenirlər, ağac üzərində oymalar, xalçaçılıq və dekorativ-tətbiqi sənət nümunələri, bəzək əşyaları və aksesuarlar, oyuncaqlar və s. sərgilənəcək.

KOBİA startapların, mikro, kiçik və orta sahibkarların müxtəlif sərgilərdə iştirakına, məhsul və xidmətlərini təqdim etməsinə mütəmadi dəstək göstərir. Bu cür tədbirlər KOB-ların satış imkanlarının genişləndirilməsi, yeni biznes əlaqələrinin qurulması, ümumilikdə sahibkarlığın inkişafı və təşviqi baxımından əlverişli platformanı təmin edir.

## "Om" yedək-təchizat gəmisi yenidən dənizə çıxacaq

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasının balansında olan "Om" yedək-təchizat gəmisi əsaslı təmir olunub. Təmir işləri ASCO-nun "Bibiheybət" Gəmi Təmiri Zavodunda aparılıb.

Proses ərzində gəminin baş və köməkçi mühərrikləri, nasosları, boru sistemləri, yaşayış otaqları, sanitar qovşaqları və yeməkxanası əsaslı təmir olunub. İstismar müddəti bitmiş iki hava kompressoru müasir tipli hava kompressorları ilə əvəzlənib. Tərsanə təmiri zamanı isə gəminin sualtı və suüstü hissələri təmizlənərək rənglənib, bir sıra qurğular təmir edilib.

Mexanizm və elektrik avadanlıqlarının təmiri başa çatdıqdan sonra "Om" dəniz sınağından uğurla keçib və Xəzər Dəniz Neft Donanmasına məxsus Liman-bazaya göndərilib.

"Om" gəmisi ASCO-nun digər təchizat-yedək gəmiləri kimi, dənizdəki neft-qazçıxarma obyektlərinin təchizatında, bilavasitə ağır konstruksiyaların, qazma qurğularının yedəklənməsində, lövbərlərin daşınmasında iştirak edəcək.

### "Əsrin müqaviləsi" - 25

## Azərbaycan dünyada ən zəngin neft-qaz infrastrukturuna malik ölkələrdəndir

*Əvvəli 1-ci səh.*

Dənizin dibi ilə sualtı kəmərlərin çəkilməsi də yeniliklərin həyata keçirilməsini, məsələn, borudüzən, dalğıc və digər gəmilərin modernləşdirilməsini gündəmə gətirdi. Neftin və qazın müəyyən bir məkanda toplanması, daha sonra onların ixrac olunması qarşıda mühüm məsələ kimi dayanırdı.

Bu gün Azərbaycanın həm dənizdə, həm də quruda geniş və dünya səviyyəli neft-qaz infrastrukturuna malik olması məhz 25 il əvvəl başlanan nəhəng işlərin uğurlu nəticələrindən biridir.

"Əsrin müqaviləsi" çərçivəsində qazanılan nailiyyətlərdən bəhs edərkən ilk növbədə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) yaradılan yenilikləri xatırlatmaq vacibdir. Bu zavodun keçən əsrin 70-80-ci illərində məhz Azərbaycanda tikilməsi Ulu Öndərin uzaqgörən siyasəti və gərgin səyi nəticəsində mümkün olub. Mütəxəssislərin fikrincə, əgər bu zavod olmasaydı, "Əsrin müqaviləsi" çərçivəsində görülən işlər illərlə gecikə bilərdi. Belə ki, AÇG yataqlarında quraşdırılmış 8 platformanın bir çox əsas hissələri BDÖZ-də inşa edilib. Bunun üçün isə son 25 ildə zavodda genişmiqyaslı yenidənqurma və modernləşdirmə işləri aparılıb. Bu da müəssisədə ən müasir standartlara malik qurğuların inşasına şərait yaradıb.

Bu gün dünyanın ən böyük neft-qaz terminallarından biri də məhz Azərbaycanda, Bakıdan 55 kilometr cənubda yerləşən Səngəçal qəsəbəsindədir. Səngəçal terminalı sözün əsl mənasında regionun neft-qaz ixracı mərkəzinə çevrilib. İndi terminalın qurğuları təkcə AÇG-dən deyil, "Şahdəniz"dən gələn karbohidrogenləri də qəbul edir və ilkin emaldan keçirir. Təkcə onu qeyd etmək kifayətdir ki, üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropa bazarlarına çatdıracaq "Cənub qaz dəhlizi" öz başlanğıcını buradan götürür.




"Əsrin müqaviləsi" imzalanandan sonra tam modernləşdirilib ən müasir dəniz qurğularının inşa edildiyi məkana çevrilən obyektlərdən biri də Bakının Bibiheybət ərazisindəki ATA ("AMEK-Tekfen-Azfen") tikinti-quraşdırma sahəsidir. 2000-ci illərin əvvəllərində ATA-nın ərazisində onlarca yeni bina və sex inşa edildi. İnşaatçılar üçün yaşayış sahəsi, yeməkxana, nəqliyyat vasitələri üçün qaraj, digər xidmət və təchizat binaları tikildi. Görülən işlər ATA-da ilkin olaraq "Azəri" yatağında quraşdırılması nəzərdə tutulan Kompressor və Suvurma Platformasının üst modullarının yüksək keyfiyyətlə inşa edilməsinə imkan verdi. Daha sonra bu obyektdə "Dərinsulu Günəşli"dəki iki platformadan birinin, "Qərbi Çıraq", "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" kimi nəhəng platformaların üst modulları tikildi. ATA-nın necə böyük əhəmiyyətə malik bir obyekt olduğunu vurğulamaq üçün bu qurğuların təkcə adını çəkmək kifayətdir.

Hazırda Xəzərdə istər istismar edilən yataqlarda, istərsə də geoloji kəşfiyyat aparılan sahələrdə Azərbaycanın özünün qazma qurğuları işləyir. Son 25 ildə, yeni "Əsrin müqaviləsi" imzalanandan bəri "Dədə Qorqud", "İstiqlal" kimi yarımdalma qazma qurğuları müasir tələblər səviyyəsində modernləşdirilərək böyükhəcmli işlər görüb. Yeni enerji strategiyamızın müəllifi, Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan qurğunun köməyi ilə texnoloji sahədə böyük irəliləyişlər əldə edilib.

Neft-qaz layihələrinin uğurlarında Azərbaycan gəmilərinin də öz payı var. Bu layihələrin tələblərinə uyğun təmir edilmiş və yenidən qurulmuş "Azərbaycan" kran gəmisinin, "STB-1" daşıma və "İsrafil Hüseynov" borudüzmə barjlarının, "Akademik Tofiq İsmayılov" dalğıc gəmisinin son illərdə Xəzərdə gördüyü işlər misilsizdir.

Azərbaycanın zəngin neft-qaz infrastrukturu ildən-ilə genişlənir. Xəzər regionunun yeganə boruörtükləmə zavodu da məhz Bakıda yerləşir. Əvvəlki illərdə AÇG-də, eləcə də Xəzərdəki digər yataqlarda salınan sualtı kəmərlər üçün boruları örtükləyən müəssisə sonralar "Şahdəniz"lə bağlı sifarişləri də müvəffəqiyyətlə yerinə yetirib.

2013-cü ildə istismara verilmiş Bakı Gəmiqayırma Zavodunun fəaliyyətinin mühüm bir hissəsi neft-qaz sənayesi ilə bağlıdır. İstənilən növ gəmilərin tikintisi və təmiri üzrə ixtisaslaşan bu müəssisə neft-qaz sektoruna da böyük dəstək verir. Burada sahə üçün istənilən gəmilərin və qazma qurğularının təmiri və tikintisi mümkündür. Hazırda "Şahdəniz" yatağında müvəffəqiyyətlə işləyən "Xankəndi" sualtı tikinti gəmisi məhz bu müəssisədə araya-ərsəyə gəlib.

Təsadüfi deyil ki, bu gün dünya şöhrətli şirkətləri birləşdirən konsorsiumlar ölkəmizdə qlobal layihələri həyata keçirərkən məhz yerli xammaldan, işçi qüvvəsindən, podratçı və subpodratçılardan olduğu kimi, həm də yerli infrastrukturdan, o cümlədən qurğu və kommunikasiyalardan istifadə etməyə üstünlük verirlər.

Bir sözlə, Azərbaycan zəngin neft-qaz infrastrukturu potensialına görə Xəzər regionu ölkələri arasında xüsusi mövqeyə malikdir. Diversifikasiya olunmuş magistral neft və qaz kəmərləri sistemi, terminallar və zavodlar, dənizin dərinliklərində istənilən əməliyyatı keçirməyə imkan verən infrastruktur regional əhəmiyyət daşıyır. Odur ki, Azərbaycan qlobal enerji təhlükəsizliyinin təminatı naminə bütün mövcud imkanlarını digər ölkələrə də təqdim etməyə hazır olduğunu dəfələrlə bəyan edib.

Vaxt gələcək sözügedən layihələrin hamısı başa çatdırılacaq. Onların reallaşdığı istehsalat sahələri, eləcə də istifadə olunan bir çox digər infrastruktur isə mülkiyyət kimi Azərbaycan xalqına və dövlətinə qalacaq.

***Flora SADIQLI, "Azərbaycan"***

## Hava şəraiti Ucar pambıqçılarına mane olmur

Ucar rayonunda pambıq yığımı davam edir. Hava şəraitinin törətdiyi çətinliklərə baxmayaraq, indiyədək 40 tona yaxın məhsul toplanıb və bunun 32 tonu "P-AQRO" MMC-nin Ucar pambıq emalı kompleksinə təhvil verilib.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, builki mövsümdə 5 ərazidə - Təzə Şilyan, Şahlıq, Lək, Xələc və Qaziyan ərazi dairələrində 500 hektarda pambıq yetişdirilib. Daha 10 hektarda Çin texnologiyası ilə əkin aparılıb. Torpaq mülkiyyətçiləri ağır zəhmət bahasına yetişdirdikləri məhsulu tez və itkisiz yığmaq üçün bütün qüvvələri səfərbər ediblər. Hazırda məhsul toplanışına hər gün 200-dən çox işçi qüvvəsi çıxır. Yığım Lək, Xələc və Təzə Şilyan ərazi dairələrində daha mütəşəkkil təşkil olunub. Yetişdirilən məhsulun 80 faizinin maşınla, qalanının isə əl ilə yığılması nəzərdə tutulur. Artıq 2 pambıqyığan maşın hazır vəziyyətdədir.

Qeyd edək ki, mütəxəssislər bu mövsümdə 1000 tondan çox "ağ qızıl" yığılacağı qənaətindədirlər.

## Zaqatalada indiyədək 17 min tonadək dən qarğıdalı tədarük edilib

Zaqatalalı fermerlər bu il 3 min 506 hektar sahədə qarğıdalı bitkisi yetişdiriblər. Hazırda təsərrüfatlarda qarğıdalı yığımı davam edir.



İndiyədək 2 min 990 hektar sahənin məhsulu yığılıb, 16 min 983 ton dən qarğıdalı istehsal olunub. Hər hektardan orta məhsuldarlıq 56,8 sentner təşkil edir.

Rayonda kartof, günəbaxan, lobya və bostan məhsullarının yığımı artıq başa çatıb. Fermerlər 1567 hektar kartof sahəsindən 18 min 866 ton, 120 hektar günəbaxan sahəsindən 296 ton, 181 hektar lobya sahəsindən 364 ton, 815 hektar bostan bitkiləri sahəsindən isə 7 min 172 ton məhsul tədarük ediblər. Ötən illə müqayisədə kartof istehsalı 172 ton, günəbaxan istehsalı 1,2 ton, lobya istehsalı 8 ton, bostan məhsulları istehsalı isə 166 ton artıb.

Rayonda tərəvəz məhsullarının yığımı da davam edir.

*Xəbərlər hazırlanarkən AZƏRTAC-ın informasiyalarından istifadə edilmişdir*

# 51 müxtəlif adda kitab, 3 sənədli film, 5 sosial videoçarx

**Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, eləcə də dini etiqad sahəsində maarifləndirmə işi bir neçə istiqamətdə həyata keçirilir ki, bunlardan da başlıcası müxtəlif mövzularda kitabların nəşrinə, sosial videoçarxların və sənədli filmlərin hazırlanmasına maddi vəsaitin ayrılmasıdır.**







Belə ki, 2018-ci il ərzində fondun dəstəyi ilə 51 müxtəlif adda kitab nəşr edilmiş, 3 sənədli film, 5 sosial videoçarx hazırlanmışdır. 2019-cu il üçün isə 43 adda kitabın nəşri, 6 sənədli film və 6 sosial videoçarxın hazırlanması nəzərdə tutulmuşdur.

Mənəvi Dəyərlərin Təbliği fondunun dəstəyi ilə nəşr edilən kitablar, hazırlanan sosial videoçarxlar və filmlər milli-mənəvi, əxlaqi, tərbiyəvi, sosioloji, dini, tarixi, vətənpərvərlik və s. bu kimi əhəmiyyətli mövzuları əhatə edir. Burada əsas məqsəd hər birimiz üçün müqəddəs sayılan, cəmiyyətin inkişafında xüsusi rolu olan ailə dəyərlərinin, dini və əxlaqi dəyərlərin, vətənpərvərliyin, böyüyə hörmət və kiçiyə mərhəmətin, yaxşılığın, yardımlaşmanın, xeyriyyəçiliyin, birgəyaşayışın, azərbaycançılığın təbliğinə töhfə vermək və bu istiqamətdə maarifçilik işini həyata keçirməkdir. Fondun dəstəyi ilə hazırlanan nəşrlərdə intihar, zərərli vərdişlərə aludəçilik, mənəviyyat böhranı, dini radikalizm və s. qlobal problemlərə toxunulur və səbəbləri araşdırılır.

"Azərbaycanda xeyriyyəçilik ənənələri", "İslam: mənəvi dünyadan sosial həyata", "Erməni terroru: Azərbaycanın dini və tarixi abidələri", "Azərbaycanda ailə dəyərləri", "Mənəvi dəyərlər İlham Əliyev siyasətinin tərkib hissəsi kimi", "Birgəyaşayış fəlsəfəsi özünütəcriddən vəhdətə doğru", "Qurani-Kərimdə mənəvi prinsiplər" adlı kitablar fondun dəstəyi ilə nəşr edilənlərin kiçik bir hissəsidir.

Həmçinin Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə "Ailə dəyərləri", "Heydər Əliyev və azərbaycançılıq", "Oxu" filmləri, "Həyat dəyərlidir", "Azərbaycan bayrağı", "Dilim varsa, mən varam", "Azərbaycan ailəsi", dahi xeyriyyəçimiz Hacı Zeynalabdin Tağıyevə həsr olunmuş "Xeyriyyəçilik ənənələrimiz" adlı videoçarxlar hazırlanaraq sosial şəbəkələrin fonda məxsus olan səhifələrində nümayiş etdirilmişdir.

Qeyd edək ki, fondun maarifləndirmə sahəsində fəaliyyətinin bir hissəsini də müxtəlif mövzularda konfransların, seminarların, "dəyirmi masa"ların keçirilməsi təşkil edir. Belə ki, ötən ildən bugünədək ölkənin müxtəlif bölgələrində 100-ə yaxın konfrans, seminar və "dəyirmi masa"lar təşkil edilmişdir. Bu tədbirlərdə mövzuya uyğun olaraq ekspertlərin mühazirələri dinlənilir, fondun sifarişi ilə hazırlanmış filmlər və videoçarxlar nümayiş olunur, həmçinin disk halına salınaraq kitablarla birlikdə pulsuz paylanılır.

***Xəyalə MURADLI, "Azərbaycan"***

# Bakı Dövlət Universiteti regionun ən böyük ali təhsil ocağıdır

**Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin şərəfli bir yol keçib. Prezident İlham Əliyevin "Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı əsasında bu ali təhsil ocağının yubiley tədbirləri həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda geniş qeyd edilir.**



AZƏRTAC xəbər verir ki, Avropanın mədəniyyət paytaxtlarından biri olan Vyana şəhərində Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubileyi təntənə ilə keçirilib. Azərbaycan Mədəniyyət Mərkəzində təşkil olunan yubiley tədbirinə BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti, Vyanada akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, Avstriya ictimaiyyətinin, işgüzar dairələrin nümayəndələri, mədəniyyət və elm xadimləri, bu ölkədəki azərbaycanlı icmasının nümayəndələri qatılıblar.

Yubiley mərasimi BDU tələbələrinin ifasında Azərbaycan Respublikasının Dövlət himninin səsləndirildiyi videokadrın nümayişi ilə başlanıb.

Tədbirdə Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova, ölkəmizin Avstriyadakı səfiri Qalib İsrafilov və BDU-nun rektoru Elçin Babayev çıxış ediblər.

Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova bildirib ki, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti bir əsr öncə Azərbaycan xalqının tarixində önəmli iz buraxıb. Cəmi 23 ay sürən həmin dövr Azərbaycan tarixində önəmli hadisələrlə yadda qalıb, onlardan biri də Bakı Dövlət Universitetinin təsis olunmasıdır. Cümhuriyyətin qurucuları Avropa nümunəsi əsasında ali təhsil ocağının əsasını qoymaqla yanaşı, oraya həmin dövrün tanınmış alim və mütəxəssislərini dəvət ediblər. Bakı Dövlət Universiteti yarandığı dövrdən böyük inkişaf yolu keçərək, bu gün nəinki Azərbaycanın, eləcə də regionun ən böyük ali təhsil ocağı və mühüm elm mərkəzidir.

Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov çıxışında Bakı Dövlət Universitetinin Azərbaycanda təhsilin və elmin inkişafına göstərdiyi misilsiz xidmətlərlə yanaşı, ölkənin ictimai-siyasi həyatında oynadığı mühüm rolla bağlı məsələlərə toxunub. Qeyd edib ki, bu ali təhsil ocağının inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu Öndər Bakı Dövlət Universitetini "Azərbaycan xalqının milli sərvəti" kimi yüksək dəyərləndirib, onun məzunu kimi universitetin regionda qabaqcıl təhsil ocağına çevrilməsi üçün çox işlər görüb.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev yubileyin yüksək səviyyədə qeyd olunmasına görə Azərbaycan Mədəniyyət Mərkəzinə təşəkkürünü bildirib. Qonaqları universitetin 25 minlik böyük kollektivi adından salamlayan rektor ölkə başçısı İlham Əliyevin sərəncamına əsasən BDU-nun yubileyinin müxtəlif səviyyələrdə, o cümlədən UNESKO-nun iqamətgahında, dünyanın bir sıra ölkələrində qeyd edilməsinin davamı olaraq bu tədbiri Azərbaycan elmi və təhsilinə göstərilən qayğı kimi yüksək dəyərləndirib.

Universitetin keçdiyi şərəfli yola qısa ekskurs edən Elçin Babayev vurğulayıb ki, bu tarixi inkişaf mərhələsində Ümummilli Lider Heydər Əliyevin müstəsna rolu olub. Cəmi iki fakültə ilə fəaliyyətə başlamış universitetdə bu gün 16 fakültədə 22 mindən çox tələbə təhsil alır. Regionun qabaqcıl elm və təhsil müəssisəsi olan BDU bu gün iki elmi-tədqiqat institutu, zəngin laboratoriyaları, elmi mərkəzləri, 125 kafedrası, 3 milyona yaxın kitab fondu olan böyük kitabxanası və digər üstünlükləri ilə tanınır.

Universitetin 150 mindən artıq məzunu arasında dünya şöhrətli alimlər, siyasi xadimlər, görkəmli şəxsiyyətlər var. Ümummilli Lider Heydər Əliyev, Nobel mükafatı laureatı Lev Landau, əfsanəvi kimyaçı Yusif Məmmədəliyev, görkəmli ədəbiyyatşünas alim və yazıçı Mir Cəlal Paşayev, dünya şöhrətli riyaziyyatçı Zahid Xəlilov, tanınmış şərqşünas alim Aida İmanquliyeva və digər onlarca məşhur sima bu şərəfli siyahıda yer tutur.

Universitetin bu günü haqqında danışarkən Elçin Babayev dünyanın tanınmış ictimai-siyasi xadimlərinin bu universitetin fəxri doktoru olduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, bir çox ölkələrin, o cümlədən Türkiyə, Rusiya, Polşa və Litvanın prezidentləri, Nobel mükafatçıları, NATO, UNESKO və ISESCO-nun rəhbərləri, ABŞ-ın Dövlət katibləri və digər görkəmli şəxsiyyətlər BDU-nun fəxri doktorlarıdır: "Biz fəxr edirik ki, Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Prezidenti İlham Əliyev də həmin siyahıdadırlar".

Çıxışının sonunda rektor Elçin Babayev Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımovaya BDU-nun fəxri fərmanını təqdim edib.

Tədbirin bədii hissəsində gənc dirijor Mustafa Mehmandarovun rəhbərliyi ilə "Xəzər virtuozları" kamera orkestri konsert proqramı təqdim edib. Konsertdə Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib. Solistlər Cəmilə Qaraçaylı (skripka), Arslan Növrəsli (tar) və Etibar Əsədlinin (fortepiano) ifaları maraqla qarşılanıb.

Tədbirdə BDU-nun 100 illik tarixini dolğun əks etdirən videoçarx göstərilib. Mədəniyyət Mərkəzinin zallarında BDU-nun 100 illik fəaliyyəti haqqında tarixi və müasir fotoşəkillərdən ibarət sərgi nümayiş olunub.

Qeyd edilməlidir ki, Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə bu ilin noyabr ayında Bakı şəhərində silsilə tədbirlər keçiriləcək.

# "Visa Token" xidməti istifadəyə verilir

Sentyabrın 10-da Bakıda Maliyyə Bazarlarına Nəzarət Palatası və "Visa Inc." beynəlxalq kart təşkilatı tərəfindən çoxsaylı kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə elektron ödənişlərdə yeniliklərin müzakirəsi və "Visa Token" xidmətinin istifadəyə verilməsinə həsr olunmuş mətbuat konfransı keçirilib.

Mətbuat konfransında "Visa Inc." beynəlxalq kart təşkilatının Qafqaz regionu, Müstəqil Dövlətlər Birliyi, Cənub-Şərqi Avropa regionu üzrə baş meneceri Kristina Doros tərəfindən "Visa Token" xidməti və onun üstünlükləri, ölkədə rəqəmsal ödənişlərin inkişafı sahəsində təşkilatın əsas prioritet istiqamətləri, tətbiq ediləcək yeni məhsul və xidmətlər haqqında ətraflı məlumat verilib.

Maliyyə Bazarlarına Nəzarət Palatasının Maliyyə bazarlarının infrastrukturuna nəzarət idarəsinin rəisi Tamerlan Rüstəmov tərəfindən isə ölkədə bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üzrə tənzimləmə mexanizminin təkmilləşdirilməsi, rəqəmsal ödənişlərin inkişafı və bu sahədə innovativ ödəniş həllərinin tətbiqi, məsafəli bank xidmətlərinin inkişafı istiqamətində həyata keçirilən layihələr və gələcək perspektivlər haqqında məlumat açıqlanıb. Eyni zamanda "Visa Token" xidmətinin ölkəmizdə tətbiqinin rəqəmsal ödənişlərin inkişafında yeni bir mərhələ olması, bu xidmətin rəqəmsal ödənişlərin təhlükəsizlik və effektivlik səviyyəsinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb etməsi bildirilib.

"Visa Token" xidməti nağdsız ödənişlərin ödəniş kartları ilə yanaşı, müxtəlif vasitələr, o cümlədən mobil telefonlar vasitəsilə həyata keçirilməsinə, ödəniş kartları ilə aparılan əməliyyatlarda məlumatların emalı üzrə təhlükəsizlik səviyyəsinin yüksəldilməsinə, daha innovativ həllərin tətbiqinə imkan verəcəkdir.

Mətbuat konfransında Maliyyə Bazarlarına Nəzarət Palatası və "Visa Inc." beynəlxalq kart təşkilatı arasında daha öncədən imzalanmış Anlaşma Memorandumu tərəflər arasında dəyişdirilib. Bu Anlaşma Memorandumu ödəniş kartları ilə aparılan əməliyyatlarda fırıldaqçılıq hallarının qarşısının alınması, rəqəmsal ödənişlərin inkişafı üzrə tənzimləmə çərçivəsinin təkmilləşdirilməsi, maliyyə inklüzivliyinin gücləndirilməsi və rəqəmsal ödənişlər sahəsində qabaqcıl beynəlxalq təcrübənin mənimsənilməsi, habelə rəqəmsal ödənişlərin inkişafı və innovativ ödəniş həllərinin istifadəsinin genişləndirilməsi üzrə birgə əməkdaşlıq istiqamətlərini müəyyən edir.

Ümumilikdə kütləvi informasiya vasitələri nümayəndələrinin çoxsaylı sualları ilə davam edən mətbuat konfransında rəqəmsal ödənişlər sahəsində həyata keçirilən islahatlar, bu sahədə tətbiq olunacaq yeniliklər ətrafında müzakirələr aparılıb.

***"Azərbaycan"***

# İkinci Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalının proqramı açıqlanıb

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 28-dən oktyabrın 1-dək keçiriləcək Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalında bir sıra yeniliklər olacaq.

AZƏRTAC xəbər verir ki, ikinci ildir təşkil olunan festival çərçivəsində Bakıda və şairin doğulduğu Şamaxıda 30-dək tədbir keçiriləcək.

Festivalda bu il ilk dəfə Nəsiminin seçilmiş qəzəlinə bir sıra tədqiqatçı və şeir bilicisi öz şərhini verəcək, həmin təfsirlərin müzakirəsi olacaq. "Mən ki, dərvişəm, fəqirəm, padişahi-aləməm" qəzəlinə Azərbaycan, Rusiya, İran, Türkiyə və Misirdən 10-dan çox müəllif öz təhlillərini təqdim edəcək. Festivalda beynəlxalq miqyasda tanınmış nəsimişünaslar, şairlər, alimlər və filosoflar mühazirələrlə çıxış edəcəklər. Rusiyalı psixoloq Aleksey Sıtnikov, ABŞ-dan olan tədqiqatçı Alan Qodlas, italiyalı şair David Rondoni, Azərbaycan əsilli, Böyük Britaniyada yaşayan filosof və rəssam Zeyqəm Əzizov mühazirələrində Nəsimi fəlsəfəsi ilə keçmişə və müasir dövrə aid müxtəlif nəzəriyyə və konsepsiyalar arasında paralellər aparacaqlar. Festival çərçivəsində, həmçinin almaniyalı alim, tanınmış nəsimişünas Mixael Hess və Böyük Britaniyada yaşayan tədqiqatçı, azərbaycanlı Orxan Mirqasımovun Nəsimi və hürufilik haqda kitabları təqdim ediləcək.

Builki festivalda kino sahəsində dinlərarası dialoq üzrə məşhur beynəlxalq SİGNİS mükafatına layiq görülmüş filmlərin nümayişi olacaq. Finlandiyalı rejissor Aki Kaurismekinin "Ümidin o biri üzü" filmində fərqli dinlərə, mədəniyyətlərə və həyat tərzlərinə malik insanların anlaşması və dostlaşması əksini tapıb.

Silsilə tədbirlər çərçivəsində sentyabrın 28-də "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruq İdarəsi və İslam Tarixi, Mədəniyyəti və İncəsənəti Araşdırma Mərkəzinin (IRCICA) birgə təşkilatçılığı ilə "El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı da start götürəcək.

Nəsimi festivalı çərçivəsində bu il həm də uşaq evləri və internat məktəblərinin sakinləri və məzunlarının iştirakı ilə "Ümidin yaradılması" sosial-mədəni layihəsi həyata keçiriləcək. Layihə üzrə dizayn kurslarına cəlb olunmuş 30 iştirakçı öz arzularını təsvir vasitəsilə əks etdirib və onların əl işləri sonra köynəklər üzərinə köçürülüb. Bu köynəklərin festival çərçivəsində nümayişi və satışı təşkil olunacaq. Layihənin məqsədi uşaq evləri və internat məktəblərinin sakinləri və məzunlarının yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və onlara məşğulluq imkanları yaratmaqdır.

Festival günlərində Bakı və Şamaxıda bir sıra sərgilər də olacaq: sentyabrın 28-də Bakıda Şirvanşahlar sarayında açılacaq "İrfani sirlər" sərgisində Azərbaycan, Türkiyə, Fransa və Özbəkistandan olan 10 rəssam və heykəltəraşın əsərləri nümayiş etdiriləcək. Saray ərazisini əhatə edən ekspozisiyada mənəvi həyat və ruh təkamülünün sirlərinə həsr olunan videoart, qrafika nümunələri, instalyasiya və kinetik obyektlər təqdim olunacaq.

Sentyabrın 30-da "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində "Daşın nəğməsi" IV Beynəlxalq heykəltəraşlıq simpoziumu, "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda isə VIII Beynəlxalq "Tullantıdan sənətə" sərgisi açılacaq.

Qala qəsəbəsində istifadəsiz sənaye anbarının divarları üzərində işlənmiş rəsm əsərlərindən ibarət "Danışan divarlar" incəsənət layihəsinin ictimai təqdimatı olacaq. Bu layihə çərçivəsində Azərbaycan, Braziliya, Cənubi Afrika, İspaniya, Niderland və Fransadan olan rəssamların "urban/street art" (şəhər/küçə incəsənəti) janrında yaratdıqları əsərlər, Buzovna və Mərdəkan qəsəbələrindən olan yaradıcı uşaqların rəsmləri əsasında divar pannosu da nümayiş olunacaq.

Festival çərçivəsində Heydər Əliyev Mərkəzində Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin fərdi sərgisi açılacaq. Rəssamın məşhur "Ölümsüzlük otağı" ("Ölümsüzlük odası") əsəri də ekspozisiyada nümayiş olunacaq. Oktyabrın 1-də açılışı olacaq sərgi 2020-ci il martın 31-dək davam edəcək.

Şamaxı rayonunda isə "Şamaxı antologiyası" (1468, Britaniya Muzeyi, London) əlyazmasına dair sərgi açılacaq. XV əsrdə Şamaxının mədəni mərkəz olduğunu, burada yüksək kitab mədəniyyətinin mövcudluğunu nümayiş etdirən bu şeir məcmusu Azərbaycan miniatür sənətinin ən gözəl incilərindəndir. Əlyazmadakı miniatürlər sərgidə müxtəlif üsul və texnikalarla təqdim olunacaq.

Şamaxıda, həmçinin İmadəddin Nəsimiyə həsr olunan müasir incəsənət instalyasiyasının açılışı olacaq. Yüngül metal hissəciklərdən hazırlanan əsərin müəllifi rəssam Rəşad Ələkbərovdur.

Nəsimi Festivalı çərçivəsində bir sıra elan olunmuş müsabiqələrin nəticələri də açıqlanacaq: Azərbaycan Milli Xalça Muzeyinin söz ustadına həsr etdiyi xalça eskizi müsabiqəsinin yekun sərgisi açılacaq. Ekspozisiyada müsabiqənin qalibi olan 3 əsər əsasında toxunan xalçalar, təqdim edilən işlər arasından münsiflər heyətinin seçdiyi xalça eskizləri nümayiş olunacaq. Həmçinin Mədəniyyət Nazirliyinin "SÖZ" layihəsinin gənc şairlər arasında elan etdiyi Nəsimi ruhunda, yaxud bilavasitə onun şeirlərinə nəzirə olan ən yaxşı poetik əsər müsabiqəsinin nəticələri açıqlanacaq. Festival çərçivəsində müxtəlif ölkələrin incəsənət xadimləri və qruplarının ifasında mənəviyyat axtarışlarını, dinlər və mədəniyyətlərarası dialoqu tərənnüm edən musiqi proqramları və tamaşalar da təqdim olunacaq. Bu proqramlarda ayrı-ayrı dövrlərə aid ruhani və müasir musiqi nümunələri səslənəcək, fiziki imkanları məhdud insanların sağlam şəxslərlə bərabərlik və birgəliyinin ifadəsi olan rəqsləri nümayiş etdiriləcək.

Festival çərçivəsində Almaniyanın "Horizonte" ansamblı, Əfqanıstanın "Zəhra" Orkestri, Kanadanın "Klara Furey" rəqs qrupu, Böyük Britaniyanın "Candoco" və "Lost Dog" rəqs qrupları, Estoniyanın "Tallinn Oğlanlar Xoru", İsrailin "Dudu Tassa & the Kuwaitis" qrupu maraqlı proqramlar təqdim edəcək.

Sentyabrın 29-da Şamaxının Meysəri kəndində Xalq artisti Nəzakət Teymurova Nəsimi poeziyası əsasında muğamlardan ibarət proqramla çıxış edəcək.

Həmin gün Azərbaycan Dövlət Filarmoniyasında isə Azərbaycanın tanınmış caz musiqiçisi Salman Qəmbərovun "Səmimi dialoqlar" layihəsi çərçivəsində Fransadan Mişel Qodar (serpent ifaçısı), Almaniyadan Marqrit Buxberger (barokko repertuarlı müğənni) və çinli Vu Vey (şenq ifaçısı) ilə birgə ifaları təqdim olunacaq.

Festival çərçivəsində sentyabrın 30-da Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində səhnələşdirilmiş poeziya axşamı keçiriləcək.

Həmin gün Opera və Balet Teatrında isə Çinin Anhui əyalətinin Huicin Teatrının təqdimatında "İztirablı könül" tamaşası nümayiş olunacaq. Ənənəvi XVIII əsr üslubunda olan tamaşa özündə teatr sənəti və musiqi, eləcə də akrobatika və pantomim elementlərini birləşdirir.

Festivalın bağlanış mərasimi oktyabrın 1-də Heydər Əliyev Mərkəzində keçiriləcək. Proqramda Azərbaycan incəsənət xadimləri, həmçinin ABŞ, Türkiyə, İran, İordaniya və Mərakeşdən ənənəvi musiqi ifaçıları iştirak edəcəklər.

Qeyd edək ki, festival dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığının tədqiqi və təbliği, onun fikir və düşüncələrinin müasirlikdə əksini izləmək məqsədi daşıyır və ilk dəfə 2018-ci ildə keçirilib.

Budəfəki festival həm də şairin 650 illik yubileyinə təsadüf edir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi ilə əlaqədar 2019-cu il "Nəsimi ili" elan olunub.

Nəsimi Festivalının proqramı ilə aşağıdakı linkə keçid etməklə tanış olmaq mümkündür- https://nasimifestival.live/az/program/.

# Gənclər qitələrarası siyasi və ictimai münasibətlər müstəvisində də birləşirlər

## Bakıda keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Gənclər Qolunun 5-ci və Qadınlar Qolunun 6-cı iclasında bu məsələ müzakirə edildi

*Əvvəli 1-ci səh.*

Yeni Azərbaycan Partiyasının evsahibliyi ilə "Gənclərin sosial və siyasi proseslərdə rolu və qadınların fəallığının gücləndirilməsi" mövzusunda sentyabrın 7-də Bakıda keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Gənclər Qolunun 5-ci və Qadınlar Qolunun 6-cı iclası da bu qəbildəndir.

ICAPP-ın Baş katibi Park Ro-byugunun ümumi məlumatından sonra çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov konfransın Asiya qitəsində ictimai-siyasi proseslərin, bir sıra problemlərin müzakirəsi baxımından vacib platforma olduğunu deyib. O vurğulayıb ki, cəmiyyətin və bəşəriyyətin gələcəyini Asiya ölkələrində bu gün müşahidə olunan inkişafdan ayrı təsəvvür etmək mümkün deyil: "Asiya dünya iqtisadiyyatının inkişafına böyük töhfələr verir. Xüsusilə də gənclər və qadınlar problemini ayrıca vurğulamağa ehtiyac var. Asiya ölkələri üçün xarakterik olan məsələlərdən biri də əhalinin dinamik artımında gənclərin xüsusi çəkisinin yüksək olması ilə əlaqədardır".

Beynəlxalq tədbirdə xüsusi olaraq vurğulanıb ki, sabitliyin, əmin-amanlığın bərqərar edilməsi və möhkəmləndirilməsi, region üçün problemə çevrilən terrorizm kimi bəlaların aradan qaldırılması da ICAPP çərçivəsində müzakirə olunacaq ciddi məsələlərdir.

ICAPP Gənclik Qolunun sədri, Malayziya parlamentinin üzvü Seri Şahidan bin Kassimin ölkəmizə ikinci dəfə səfər etdiyini bildirib. Qonaq ötən dövr ərzində böyük inkişafın şahidi olduğunu və Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyini söyləyib.

Diplomat bildirib ki, keçirilən tədbirdə Asiya ölkələrindən olan müxtəlif baxışlara malik gənclər iştirak edir: "Bu günün gəncləri sabahın liderləridir. Bu isə imkan verir ki, onlar gələcəyin siyasətçisi, lideri kimi qətiyyətli və vacib qərarlar qəbul edə bilsinlər..."

Azərbaycanın Avropa ilə Asiyanın qovuşuğunda yerləşdiyini bildirən qonaq tədbirin məhz Bakıda keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

ICAPP Qadınlar Qolunun həmsədri, Nepal parlamentinin üzvü Sujata Koirala müzakirələrə qoşularaq, bu iclasın qadınların ictimai həyatda iştirakının gücləndirilməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Xanım Sujata Koirala qeyd edib ki, qlobal dünyada gender bərabərliyinin təmin edilməsində mühüm nailiyyətlər əldə olunub. Onların parlamentdə və dövlət qurumlarında təmsilçiliyi xeyli artıb. ICAPP fəaliyyət göstərdiyi dövr ərzində qadınların mövcud problemlərinin həlli istiqamətində xeyli zəruri işlər görüb.

Milli Məclis Sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova dünyada mövcud olan ictimai-siyasi durum, bütün qitələri təhdid edən təhlükələr və çağırışlar barədə fikirlərini söyləyərkən qeyd edib ki, bu, bizi ən müxtəlif formatlarda beynəlxalq qurumlar çərçivəsində, xüsusilə siyasi partiyaların birlikləri olan ICAPP tipli təşkilatlarda birləşməyə vadar edir. Bu regionda siyasi partiyaların bir araya gəlməsi və qarşıdakı hədəflərə nail olunması üçün yolların axtarılması baxımından çox vacibdir.

Gənclər və İdman naziri Azad Rəhimov isə çıxışında Azərbaycanın dövlət gənclər siyasəti haqqında məlumat verərkən bildirib ki, ölkəmizdə bu sahədə bır sıra dövlət proqramları qəbul olunub. Əhalimizin 30 faizindən çoxunu gənclər təşkil edir. Prezident İlham Əliyev tərəfindən gənclərin inkişafı üçün yaradılmış münbit şərait nəticəsində dövlət qurumlarında onların təmsilçiliyi xeyli artıb. Gənclərimizin beynəlxalq əlaqələrinin inkişaf etdiyini deyən nazir son illər Azərbaycanda gənclər siyasəti ilə bağlı beynəlxalq tədbirlərin sayının da dəfələrlə artdığını vurğulayıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Sədaqət Qəhrəmanovanın islasda səsləndirdiyi fikrə görə, müasir inteqrasiya, eləcə də davamlı inkişaf prosesində qadınların iştirakının artırılması, bunun üçün mexanizmlərin yaradılması əsas məsələlərdəndir: "Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Qadınlar Qolu zərif qadınların hüquqlarının müdafiəsi istiqamətində çox mühüm layihələr həyata keçirir, onların iqtisadi, sosial həyatda iştirakının təmin olunmasında, bərabər hüquqlar əldə etməsində xüsusi rol oynayır. Ümumiyyətlə, gender bərabərliyinə nail olmaq, qadınların imkanlarını genişləndirmək inkişafın fundamental əsasıdır və qloballaşma prosesində önəmli yer tutur".

Tədbirdə də qeyd edildiyi kimi, gənc alimlərimiz bu gün müxtəlif sahələrdə ölkənin elmi potensialını daha da gücləndirirlər. Dövlət başçısının təşəbbüsü ilə bir neçə il bundan əvvəl Elmin İnkişafı Fondu, Gənclər Fondu yaradılıb. Bu fondlar vasitəsilə istedadlı gənclərə qrantlar verilir, müxtəlif tədqiqat proqramlarının həyata keçirilməsi üçün vəsait ayrılır. Buna görə də gənclər bu gün cəmiyyətdə çox fəal rol oynayırlar.

Yeri gəlmişkən, 1995-ci ildə 11 təşkilat birləşərək Gənclər Təşkilatları Milli Şurası yaradıldı. Bu gün onun tərkibində 130-dan artıq təşkilat birləşir. Gənclər təşkilatlarının təşəbbüsləri, onların cəmiyyətin və gəncliyin inkişafına yönəlmiş layihələri, həmçinin beynəlxalq əməkdaşlığı dövlət tərəfindən dəstəklənir. Gənclər siyasətinin vacib istiqamətlərindən biri də beynəlxalq təmsilçilikdir. Dövlətimizin yürütdüyü xarici siyasət nəticəsində gənclər Azərbaycanın inkişafı və həqiqətlərini dünya ictimaiyyətinə yüksək tribunalardan çatdırırlar.

Azərbaycan əhalisinin əksəriyyətinin gənclərdən ibarət olması ölkəmizin davamlı inkişafının təminatıdır. Gəncliyin üzərinə düşən mühüm vəzifələrdən biri də dövlət başçısının yürütdüyü siyasətin təbliğatçıları olmaq, Prezidentin ətrafında daha sıx birləşərək azərbaycançılıq ideologiyasına sədaqətlə xidmət etməkdir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# ABŞ-ın Azərbaycandakı səfirliyinin nümayəndələri Naxçıvandadırlar

Sentyabrın 9-da Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfirliyinin İqtisadi əməkdaşlıq şöbəsinin nümayəndələri Naxçıvan Muxtar Respublikasına səfərə gəliblər.

AZƏRTAC xəbər verir ki, Naxçıvan Dövlət Xalça Muzeyinə gələn qonaqlara məlumat verilib ki, son illər muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin edilib, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Hazırda muzeydə 3400-dən çox eksponat var.

Milli memarlığımızın möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə Xatun türbəsi ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, bu abidə 1186-cı ildə ucaldılıb. Açıq səma altında nümayiş etdirilən daş abidələr haqqında da qonaqlara ətraflı məlumat verilib.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanışlıq zamanı qonaqların nəzərinə çatdırılıb ki, abidə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" 2013-cü il 5 iyun tarixli sərəncamına əsasən bərpa edilib. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi hazırda muxtar respublikada mədəni-kütləvi tədbirlərin keçirildiyi mərkəzə çevrilib.

Nümayəndə heyətinin muxtar respublikaya səfəri davam edir.

## Beynəlxalq aləm



### Britaniya parlamenti növbədənkənar seçki təklifini rədd etdi

Böyük Britaniya parlamentinin aşağı palatası - İcmalar Palatası növbədənkənar seçkilər keçirmək təklifini bir daha rədd etmişdir. Ölkənin Baş Naziri Boris Consonun irəli sürdüyü təklif deputatların üçdə ikisinin dəstəyini qazanmamışdır.

Beləliklə, Britaniyanın Avropa İttifaqından (Aİ) çıxacağı tarixədək - oktyabrın 31-dək ölkədə növbədənkənar seçkilər keçirmək imkanı daha olmayacaq. Bununla belə, Conson israr edir ki, Birləşmiş Krallığın Aİ-dən çıxması proseduru başqa vaxta keçirilməməlidir. O, İcmalar Palatasında səsvermədən qabaq bəyan etmişdi ki, növbədənkənar seçkilər keçirmək təklifi rədd edilsə, gələn ayın ortalarında Aİ sammitində Birləşmiş Krallığın qurumdan çıxması barədə danışıqlar aparacaq. O, əlavə etmişdi ki, Böyük Britaniya oktyabrın 31-də Aİ-dən çıxacaq - ya sazişli, ya da sazişsiz.

### KXDR ABŞ-la nüvə proqramına dair danışıqları bərpa etmək istəyir



Şimali Koreyanın nüvəsizləşdirilməsinə dair danışıqlarda bir neçə aydan bəri hansısa irəliləyiş olmasa da, Pxenyan ABŞ-la dialoqu tezliklə bərpa etmək niyyətindədir. KXDR Xarici İşlər nazirinin müavini Çxve Son Xuey bildirmişdir ki, "biz sentyabrın axırlarında ABŞ-la görüşməyə hazırıq".

Çxve Pxenyanın ABŞ-a "məqbul strategiya" işləyib hazırlamaq çağırışını təkrarlamışdır. O əlavə etmişdir ki, əks təqdirdə bütün diplomatik proses təhlükə altında qala bilər.

KXDR rəsmisinin bəyanatından bir qədər sonra Pxenyan yenidən silah sınağı keçirmişdir. Dünən səhər Cənubi Koreyanın "Yonhap" informasiya agentliyi xəbər vermişdir ki, KXDR qərb bölgəsindən Yapon dənizi istiqamətində iki raket buraxmışdır. Raketlər 330 kilometr məsafə qət etmişdir.

Şimali Koreya BMT və ABŞ-ın sərt sanksiyalarına məruz qalıb. Vaşinqton KXDR-in nüvə proqramı ilə əlaqədar risk aradan qalxmayanadək təzyiqi saxlamaq niyyətindədir.

### Burkina-Fasonun yüz minlərlə sakini ev-eşiyini tərk edib



Cinayətkarlığın vüsət alması və terror aktlarının sayının artması Burkina-Fasonun 300 min sakinini ev-eşiyini tərk etmək məcburiyyətində qoymuşdur. BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi İdarəsinin və Beynəlxalq Qırmızı Xaç Komitəsinin birgə bəyanatında deyilir ki, 500 min nəfərədək sakin təcili humanitar yardıma ehtiyac duyur.

Bəyanatda qeyd olunur ki, Qərbi Afrika ölkəsinin azı 1,2 milyon sakini lazımi qədər qidalanmır. Burkina-Fasonun şimal və şərqində səngərlənmiş silahlı bandalar üzündən təhlükəsizlik sahəsində ciddi problemlər diqqəti cəlb edir. Sənəddə deyilir ki, ilin əvvəlində ölkədə məcburi köçkünlərin sayı 82 min nəfər idisə, bu göstərici indi üç dəfədən çox artmışdır. Ərzaq qıtlığı müşahidə olunur.

Ardı-arası kəsilməyən silahlı hücumlar ucbatından təkcə ötən ay ölkədə 60 səhiyyə müəssisəsi bağlanmışdır. Burkina-Faso hakimiyyət orqanları bir sıra əyalətlərdə fövqəladə vəziyyət rejimi tətbiq etmişdir.

### Dünyada 40 milyondan çox adam müasir quldarlığın qurbanlarıdır

Dünyada 40 milyon nəfərdən çox adam quldarlığın müasir formalarının qurbanlarıdır. Onların dörddə biri uşaqlardır. Bu fakt BMT-nin quldarlığın müasir formaları üzrə xüsusi məruzəçisi Urmila Bxulanın yeni məruzəsində yer almışdır.

Məruzədə deyilir ki, hazırda müasir quldarlıq problemi ətraf mühitin vəziyyətinin pisləşməsi, miqrasiya və demoqrafik dəyişikliklər nəticəsində mürəkkəbləşə bilər. Sənəddə qeyd olunur ki, "müasir qullar"ın 60 faizi özəl sektorda işləmək məcburiyyətindədir. Məruzənin müəllifi hesab edir ki, istismar təhlükəsi altında olan şəxslərin sayının artması bir neçə amildən asılıdır. Bəziləri işlərini itirirlər. İşdən narazı qalan gənclər təhlükəli kanallar vasitəsilə mühacirətə getmək məcburiyyətindədirlər ki, bu səbəbdən onlar müdafiəsiz vəziyyətə düşürlər.

Məruzədə qeyd olunur ki, dünyada "müasir qullar"ın yarısından çoxu Asiya-Sakit okean regionunun payına düşür, onun ardınca Afrika gəlir.

### Tailandda 28 nəfər daşqınlarda həlak oldu

Tailandın 32 şimal və şimal-şərq əyaləti leysan yağışlarının doğurduğu daşqınlardan ziyan çəkmişdir. Bu barədə "Bangkok Post" qəzeti xəbər verir.

Ötən ayın 29-dan bəri 28 nəfər təbii fəlakətin qurbanı olmuşdur. 370 mindən çox ev təsərrüfatı ziyan çəkmişdir. Leysan yağışları bir sıra rayonlarda hələ də davam edir. Bir çox yerli sakinlər ev-eşiyini tərk etmək məcburiyyətində qalmışlar. Təbii Fəlakətlərin Fəsadları ilə Mübarizə Departamentinin verdiyi məlumata görə, daşqınlardan ən çox Pitsanulok, Piçit, Amnat Çaroen, Yasotxon, Ubon Ratçatxani, Roy Yet və Sisaket əyalətləri zərər çəkmişdir.

# Ermənistanda siyasi gərginlik ən yüksək həddə çatıb

## Paşinyanla keçmiş hərbi xunta arasında ziddiyyətlər daha da dərinləşir

*Əvvəli 1-ci səh.*

Belə ki, 1 mart hadisələri ilə bağlı qondarma rejimin sabiq təhlükəsizlik xidmətinin rəisi Vitali Balasanyan xüsusi istintaq komitəsinə çağırılıb. Dindirilmədən sonra Vitali Balasanyan bildirib ki, 1 mart hadisələrində baş nazir Nikol Paşinyan və sabiq prezident Levon Ter-Petrosyan günahkardırlar.

Bu gün separatçı rejimin devrilməsinə çağırış edənlər bildirirlər ki, Ermənistanda hakimiyyət dəyişsə də, Xankəndidə köhnə rejim davam edir. Onlar Bako Saakyanın devrilməsi üçün hərəkətə keçməyə hazır olduqlarını bəyan edirlər. Bildirilir ki, inqilabın küləyi Xankəndiyə mütləq çatmalıdır. Dağlıq Qarabağ keçmiş rejimin əlindədir və inqilab artıq ora doğru yaxınlaşır. Qarabağdakı ermənilər də Xankəndidəki mövcud rejimdən azad olmaq istəyirlər.

Eyni zamanda Qarabağda əhalinin çətin sosial vəziyyətdə yaşaması burada inqilabı tətikləyir. Baş verənlər bu qənaətə gəlməyə əsas verir ki, proseslər həm Ermənistanda, həm də işğal olunmuş ərazilərdə daha xaotik vəziyyətin yaranmasına rəvac verəcək.

Erməni siyasi şərhçi Armen Badalyan bildirib ki, bu günlərdə baş nazir Paşinyanla "Sasna Tsrer"in rəhbəri Jirayr Səfilyanla görüşünün əsas məqsədi təkcə Ermənistanın daxili-siyasi vəziyyəti deyil, eləcə də qondarma rejimdə gözlənilən seçkilərdir: "Çünki silah məsələsinə gəlsək, Paşinyanın daha çox silah sayı var və onlara yardım üçün çağırış etməyə ehtiyacı yoxdur. Təkrar edirəm, görüşün əsas məqsədi Jirayr Səfilyanın nə etməsindən asılı olmayaraq Qarabağ (qondarma qurum-red.) "seçkiləri"dir". "Sasna Tsrer"in Qarabağın hazırkı "rəhbərləri"nə qarşı kifayət qədər mənfi münasibəti var və istisna edilmir ki, onlar da bu ümumi fəaliyyətdə rola malik ola bilərlər".

Siyasi texnoloq onu da əlavə edib ki, Paşinyan və Səfilyanın görüşləri yaxın gələcəkdə daha intensiv xarakter daşıyacaq, çünki "seçkilərə" çox az zaman qalıb, bu müddət ərzində isə "Sasna Tsrer" Qarabağda çox şey etməlidir.

Məsələ bundadır ki, Ermənistanda hökm sürən ağır iqtisadi vəziyyət hər keçən gün narazılıqları artırır. Hökumət isə mövcud problemləri aradan qaldırmaq iqtidarında deyil. Çünki ölkənin buna maddi gücü yoxdur. İqtisadçı Qrant Baqratyan vurğulayır ki, ölkədə sosial-iqtisadi vəziyyət olduqca ağırdır: "Bu da vətəndaşların səbir kasasını doldurub. Hər kəs yaxşı yaşamaq arzusundadır, amma ölkədə heç nə dəyişmir. Ermənistanın hazırkı iqtisadi vəziyyətini nəzərə alsaq, heç bir siyasi rejim bu vəziyyətdə özünü doğrulda bilməz. Ölkədə siyasi rejim dəyişsə belə, problemləri həll etmək mümkün deyil".

Belə vəziyyətdə Paşinyan üçün artan problemlərdən biri də ölkənin hər bölgəsində müxtəlif tələblərlə keçirilən aksiyalardır. Belə etirazlardan biri də Lori vilayətinin ən böyük kəndlərindən biri olan Saratovkada keçirilib. Sakinlər kənd icra nümayəndəsinin özbaşınalığına son qoyulmasını tələb edirlər. Etirazçılar bildiriblər ki, icra nümayəndəsi Qarlin Markonyan onları aldadaraq pay torpaqlarını əllərindən alıb. Sakinlərin torpaqları saxta yollarla icra nümayəndəsi tərəfindən yaxın adamlarının adlarına sənədləşdirilib. Aksiya iştirakçılarının iddialarına görə, dəfələrlə Lori vilayəti qubernatoruna və ölkənin baş prokuroruna şikayətlər ünvanlansa da, heç bir nəticə olmayıb. Onlar bəyan edirlər ki, tələbləri yerinə yetirilməsə, növbəti aksiya hökumət binasının qarşısında keçiriləcək.

Belə vəziyyətdə ölkədə hakimiyyətlə xalq arasında uçurumun daha da dərinləşməsi gözlənilir. Bu isə Ermənistanı vətəndaş qarşıdurmasına sürükləyə bilər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Azercell" beynəlxalq sərgidə innovativ xidmətlərini təqdim edir

"Azercell Telekom" MMC informasiya kommunikasiya texnologiyaları sahəsində ilin ən mühüm hadisələrindən biri sayılan "ITU Telecom World 2019" beynəlxalq sərgi-konfransında iştirak edir.




Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən sərgi İKT sahəsində innovasiyaların daha sürətli tətbiqi üçün mövcud imkanları nümayiş etdirir. Sərgidə ölkəmizin milli pavilyonu təşkil edilib. Pavilyonda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qurumları, özəl İKT şirkətləri və startaplarla birlikdə "Azercell" şirkəti də ölkəmizi təmsil edir. Burada şirkət sərgi iştirakçılarını özünün yeni brend kimliyi və rəqəmsallaşma strategiyası, 4G şəbəkəsinin ölkə boyu sürətlə genişləndirilməsi sahəsində nailiyyətləri, eləcə də biznes qurumlar və fərdi istifadəçilər üçün təqdim etdiyi geniş çeşidli innovativ xidmətləri ilə tanış edir.

Beynəlxalq Telekommunikasiya İttifaqının təşkilatçılığı ilə baş tutan tədbir "Birlikdə innovasiyalar gətirərək: Əhəmiyyət kəsb edən bağlılıq" şüarı altında keçirilir. "ITU Telecom World 2019" beynəlxalq sərgi-konfransının əsas mövzusu rəqəmsal texnologiyalar vasitəsilə insan həyatının keyfiyyətinin artırılmasını təmin etmək üçün hökumətlər və təşkilatların əməkdaşlığını artırmaqdır.

"ITU Telecom World 2019" sərgisində dünyanın müxtəlif ölkələrinin və regionlarının təqdim etdiyi İKT texnologiyaları, layihələri və məhsulları ilə tanış olmaq mümkündür. Bu sərgidə İT sahəsinin innovativ inkişaf təşəbbüsləri nümayiş etdirilir, tərəfdaşlıq və investisiya imkanları təqdim edilir.

***"Azərbaycan"***


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının 2 nömrəli xəzinə saxlancında, Naxçıvan MR idarəsində, ehtiyat və regional mərkəzlərində buraxılış, mühafizə və yanğından mühafizə tədbirlərinin daha da gücləndirilməsi məqsədilə sistem və mühafizə vasitələrinin satın alınması ilə bağlı elan edilmiş tenderdə 1-ci LOT üzrə "Globtel Solutions" MMC, 2-ci LOT üzrə "Yarasa LTD" MMC, 3-cü LOT üzrə isə "Global Security Systems" MMC şirkəti qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## Lənkəran Dövlət Universiteti Digər nəqliyyat xidmətləri işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 16 sentyabr 2019-cu il saat 17:00-dək qəbul olunur.

**Ünvan: Lənkəran şəhəri, Həzi Aslanov, 50.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxs (DOST Agentliyi) aşağıdakı malların və xidmətlərin ayrı-ayrılıqda kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir:**

1. Mətbəə və çap məhsullarının satın alınması;
2. Yumşaq inventarın və xüsusi geyimlərin satın alınması;
3. Havalandırma avadanlıqlarının normal fəaliyyətini təmin etmək üçün periodik texniki xidmətin həyata keçirilməsi.

Maraqlanan təşkilatlar +994124255026 (daxili: 9035) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 16 sentyabr 2019-cu il tarixdə saat 17:00-dək Bakı şəhəri, İ.Qutqaşınlı, 86 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı "DOST" Mərkəzi aşağıdakı işlərin ayrı-ayrılıqda kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir:**

1. İnzibati binanın fasad örtüyünün yuyulması;
2. İnzibati binanın həyətyanı sahəsində abadlıq işlərinin aparılması.

Maraqlanan təşkilatlar +994124255026 (daxili: 9308) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğularında iştirak etmək üçün sənədlər 16 sentyabr 2019-cu il tarixdə saat 17:00-dək Bakı şəhəri, İ.Qutqaşınlı, 86 ünvanında qəbul olunur.

***Tender komissiyası***


### Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

### ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov Müdafiə nazirinin birinci müavini, Baş Qərargah rəisi Nəcməddin Sadıkova bacısı

**SİMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Müdafiə nazirinin birinci müavini Nəcməddin Sadıkova bacısı

**SİMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 9033
Sifariş 3006
Qiyməti 40 qəpik